


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 83 (24.220)

*11 may 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

– Əziz bacılar və qardaşlar.

Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bildiyiniz kimi, 2023-cü il mənim Sərəncamımla "Heydər Əliyev İli" elan olunmuşdur. İlin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Azərbaycan öz böyük oğlununun xatirəsinə böyük hörmətlə yanaşır.

Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır.

İl başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır. Eyni zamanda hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə – 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər.

Heydər Əliyev 1982-87-ci illərdə Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi daim Azərbaycana öz diqqətini, qayğısını göstərirdi. Məhz bu qayğı və diqqət nəticəsində Azərbaycan o illərdə də uğurla inkişaf edirdi. Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır.

Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar. Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu. Baxmayaraq ki, siyasi fəaliyyətdən kənarda qalıb, amma Ulu Öndər hər zaman Azərbaycanın



maraqları ilə yaşayırdı, ürəyi Azərbaycanla bir döyünürdü və xalqımız üçün ağır günlərdə – 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Mən onun yanında idim, o günü yaxşı xatırlayıram, həm faciəvi gün idi, eyni zamanda qürurverici bir gün idi. Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdı, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı.

Bu tarixi çıxışdan sonra, – çünki Sovet İttifaqının dağılmasına hələ iki ilə yaxın bir vaxt var idi, heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı iki ildən sonra dağılacaq, yəni bu bəyanat böyük cəsarət tələb edirdi, əsl vətənpərvərlik tələb edirdi, təbii ki, bu bəyanatdan sonra Sovet İttifaqının repressiv maşını Heydər Əliyevə qarşı geniş hücuma keçmişdir və onun Moskvada qalması artıq mümkün deyildi. Bir neçə aydan sonra – 1990-cı ilin iyul ayında o, Moskvadan Bakıya gəlmiş, ancaq ovaxtkı Azərbaycan rəhbərliyi onu da ona çox görmüşdür. Onun faktoru, güclü lider olması görünür ki, onları yaman narahat edirdi və faktiki olaraq, ona edilən təzyiqlər nəticəsində o, doğulduğu şəhərə – Naxçıvana getmiş və orada yaşamağa başlamışdır.

Naxçıvanın da ağır günləri davam edirdi, Naxçıvan tam blokadada idi. Naxçıvanın, ümumiyyətlə, gələcəkdə yaşaması ilə bağlı çox böyük təhlükələr var idi. Ermənilər necə ki, Qarabağı ələ keçirməyi planlaşdırırdılarsa, eləcə də Naxçıvanı da ələ keçirməyi planlaşdırırdılar. Naxçıvanı işğal etmək onların planlarının tərkib hissəsi idi. Heydər Əliyev Naxçıvanı qorudu, işğaldan qorudu. Erməni düşmənlər yerinə otuzduruldu və Naxçıvan çətin də olsa, blokada şəraitində də olsa, yaşayırdı, əyilmədi, sınmadı, ayaqda qaldı.

Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. Azərbaycan hakimiyyəti – həm kommunist, həm dırnaqarası demokrat hakimiyyəti hər vəchlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan, demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı.

Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdır. Heydər Əliyev uzun illər ərzində xidmət etdiyi Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdır və faktiki olaraq müstəqilliyə gedən yol Naxçıvandan başlamışdır.

Eyni zamanda Azərbaycanın müasir siyasi sistemi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb olmuşdur. Çünki Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır, ovaxtkı antimilli iqtidara qarşı müxalifət kimi. Bu partiyanın – Yeni Azərbaycan Partiyasının yaranması, bütövlükdə, bütün Azərbaycanda böyük əks-səda vermişdir. Azərbaycanın müxtəlif bölgələrindən partiyaya üzv olmaq istəyənlərin axını müşahidə edilirdi və qısa müddət ərzində Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrilmişdir və bu gün də bu, belədir.

Azərbaycanın isə Qarabağ kimi problemi, əfsuslar olsun ki, öz həllini tapmırdı. Hakimiyyətdə olanlar ancaq şəxsi mənafeyi düşünürdülər, talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC-Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yaşamışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər. Torpaqlar əldən gedirdi, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilmişdir. Şuşa alınmaz qaladır. Bunu hər kəs bilir. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır. Ondan sonra faciələrimiz daha da artdı. Şuşa işğal olunandan sonra Laçının taleyi də demək olar ki, böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu və beləliklə, Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı.

Məhz bu ağır dövrdə ovaxtkı hakimiyyət qardaş qanını axıtdı, vətəndaş müharibəsinə start verdi, təki hakimiyyətdə qalsın və öz talançılıq fəaliyyətini davam etdirsin. Xalq isə ayağa qalxdı, xalq Heydər Əliyevi tələb edirdi, ancaq Heydər Əliyevin simasında nicat yolu görürdü. O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev, demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi. Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax, budur. Yəqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz – o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq.

Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha göstərdi. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi. AXC-Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Çünki bizim torpaqlarımız işğal altında idi, ancaq ovaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində dünyada elə bir təsəvvür var idi ki, sanki Azərbaycan təcavüzkardır. Yəni böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etmişlər.

Aydın idi ki, ölkənin gələcəyi yalnız xarici sərmayə hesabına mümkün ola bilər. Çünki xəzinə boş idi, inflyasiya min faizlərlə ölçülürdü, sənaye iflic vəziyyətdə idi, hətta neftqaz sənayesi də faktiki olaraq iflic vəziyyətdə idi. Belə bir vəziyyətdə xarici investorları ölkəyə gətirmək, onları inandırmaq böyük siyasi məharət tələb edirdi. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün "Əsrin kontraktı"nın icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır, bunu da biz kontrakt imzalayarkən şərt kimi qoymuşduq. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da bizə böyük əlavə üstünlük verir.

Əlbəttə ki, daxili və xarici düşmənlər – onlar da başa düşürdülər ki, Azərbaycan artıq inkişaf yoluna qədəm qoyub. Onlar öz çirkin əməllərindən əl çəkmək fikrində deyildilər. "Əsrin kontraktı" imzalanandan iki həftə sonra Azərbaycanda dövlət çevrilişinə cəhd edildi. Yenə də Heydər Əliyev amili, xalqın ona inamı bu cəhdin qarşısını aldı. Yüz mindən çox insan Azadlıq meydanına toplaşaraq öz Liderinə dəstəyini göstərmişdir və hərbi çevrilişdə əli olan ünsürlər pərən-pərən oldular. Vəziyyət təzə-təzə sabitləşirdi, 1995-ci ilin mart ayında ikinci dövlət çevrilişinə cəhd. Artıq digər qanaddan gələn zərbə yenə də gənc dövlətimizi sarsıtdı. Yenə də xalq Ulu Öndərin ətrafında birləşərək o cəhdə də imkan vermədi. 1996-cı ildə sabitliyi pozmaq üçün əlavə cəhdlər göstərildi, onların da heç bir nəticəsi olmadı və yalnız ondan sonra ölkəmizdə, sözün əsl mənasında, sabitlik yaranmışdır. O vaxtdan bu günə qədər biz sabitliyi qoruyuruq.

*Ardı 2-ci səhifədə*

Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Bu gün dünyanın bir çox yerlərində sabitlik pozulub, müharibələr, münaqişələr, toqquşmalar baş verir, o, ölkələri geriyə atır. Ona görə hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var. Sabitlik üçün isə güclü lider lazımdır. Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü Lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir.

Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz Onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər.

Heydər Əliyev öz xalqına sıx bağlı olan bir adam idi. Məhz Onun təşəbbüsü ilə Azərbaycan dilinin qorunmasına dair önəmli addımlar atılmışdır, müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycan dilinin qorunması milli kimliyimizin qorunması deməkdir. Azərbaycan dili çox zəngin dildir. Dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili Ana dilidir. Məhz Ulu Öndərin təşəbbüsü ilə Ana dilimizin qorunması istiqamətində atılan addımlar bu gün də davam etdirilir və bu, daim davam etdirilməlidir.

Heydər Əliyevin ordu quruculuğu sahəsində çox böyük xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində nizami ordu yaradılmışdır. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız məhdud idi, orduya lazımi qədər vəsaitin ayrılması mümkün deyildi. Çünki ölkə qarşısında duran problemlər çox ciddi idi və bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı, ağır vəziyyətdə yaşayırdı. Neft Fonduna yığılan birinci vəsait yenə də Heydər Əliyevin təşəbbüsü ilə məhz keçmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına istiqamətləndirildi. Birinci qaçqın şəhərciyi məhz o vəsaitlə inşa edilmişdir. Vəsaitin qıtlığına baxmayaraq, ordu quruculuğu üçün çox ciddi addımlar atılmışdır.

Bu gün Azərbaycan Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrilib. Xatırlatmaq istəyirəm, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfrans keçirilmişdi. Məhz o illərdə bu gün "Orta Dəhliz" dediyimiz layihənin bünövrəsi qoyuldu – Avropa-Qafqaz-Asiya. Yəni bu dəhlizin Azərbaycan ərazisindən keçməsi o illərdə şərtləndirildi. Halbuki bəziləri bunu istəmirdilər. Əfsuslar olsun, bu gün də elələri var ki, Azərbaycanı bu strateji layihədən kənarda qoymaq istəyirlər, amma onların arzuları gözlərində qalacaq.

Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır. Bütün bu işlərin təməli o illərdə qoyulub. Mən bütün bu layihələrin iştirakçısı kimi bunu çox yaxşı bilirəm. O vaxt Azərbaycanın neft-qaz potensialı ilə bağlı bir çox uydurmalar, bir çox şayiələr gəzirdi, hələ bu gün də var. Amma həyat onu göstərir ki, biz nə demişiksə, hər bir sözümüz həyatda öz əksini tapıb.

Yəni Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq.



Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz – bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz, sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. İndi bir daha demək istəyirəm ki, dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışıq.

Azərbaycanda bütün azadlıqlar təmin edilir. Azərbaycan demokratik ölkədir. Azərbaycanda insanlar azad yaşayırlar. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu da dünyada bir nümunədir və bunu təkcə mən yox, bir çoxları, yəni bu məsələ ilə yaxından məşğul olan ekspertlər, siyasətçilər, dövlət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri qeyd edirlər. Bu unikal ab-hava bu gün ölkəmizi gücləndirir. Bax bu gün durduğum Şuşa şəhərinin mərkəzində bunu bir daha demək istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına biz bu gün burada dayanmışıq. Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir. Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir, elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir, qanunlar qəbul edilir, dinimizə qarşı çirkin əməllər törədilir, "Qurani-Kərim" yandırılır və buna da biganə yanaşırlar. Yəni mən bu sözləri söyləməklə bir daha demək istəyirəm ki, bizdə mövcud olan ab-hava unikaldır. Bu bizim həyat tərzimizdir və eyni zamanda bu bizim siyasətimizdir, bu bizim gücümüzdür. Bu gün belədir, bundan sonra da belə olacaq. Ancaq belə olan halda, biz bundan sonra da rahat yaşaya bilərik, öz gələcəyimizi özümüz qura bilərik.

Ölkəmizin beynəlxalq nüfuzu, görün, nə qədər yüksəlib. Bu gün beynəlxalq təşkilatlarda Azərbaycanın hörməti artır. Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına 4 ilə yaxın biz rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik. Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı. Bu gün Avropa üçün Azərbaycan çox önəmli ölkəyə çevrilib. Biz Avropa İttifaqına üzv ölkələrin üçdəbiri – doqquz ölkə ilə strateji tərəfdaşıq. Yəni beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Biz beynəlxalq müstəvidə bizə lazım olan bütün sənədləri, qətnamələri qəbul etdirə bilmişik və bu, İkinci Qarabağ müharibəsinin uğurla aparılması üçün də öz rolunu oynamışdır. Çünki biz həqiqəti sübut etmişik. Biz yalnız həqiqəti sübut etməyə çalışırdıq və ona nail olduq ki, bu bizim torpağımızdır. Bax, durduğum torpaq Azərbaycan torpağıdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işimizlə bu hüquqi və siyasi bazanı yarada bilmişik.

İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni bizim valyuta ehtiyatlarımız xarici borcu, təxminən, 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir. Bizə bəzən dərs verməyə can atan bəzi ölkələrdə bu, 100 faizdir, bəlkə də çox. Yəni bu, nəyi göstərir? Onu göstərir ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq. Amma heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan-Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun. Heç kimə imkan verməmişik və verməyəcəyik, bunu təmin etmək üçün iradəmiz də yerindədir, gücümüz də yerindədir.

Bununla paralel olaraq, son 20 il ərzində Ulu Öndərin yolu ilə gedərək sosial sahədə böyük irəliləyiş olub, maaşlar, pensiyalar müntəzəm olaraq qaldırılır, keçmiş məcburi köçkünlər üçün şəhərciklər salınıb, 300 mindən çox keçmiş məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. İndi isə onlar üçün biz, bax Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Laçında, Xocavənddə, Hadrutda, Ağalıda, Talışda, Suqovuşanda evlər inşa edirik və inşa edəcəyik. Mən qeyd etdiyim kimi, son günlərdə Qarabağda və Zəngəzurda keçirmişəm, bizim siyasətimizin, qəbul edilmiş qərarların təzahürləri artıq hər yerdə görünür. Bu, böyük xoşbəxtlikdir. Müharibədən cəmi iki il yarım keçəndən sonra artıq biz keçmiş köçkünlərimizi iki kəndə qaytarmışıq. Qeyd etdiyim kimi, 10 kəndin bünövrəsi, bax, bu son günlərdə qoyulubdur. Bütün şəhərlərin Baş planları tərtib edilib və bütün şəhərlərdə indi genişmiqyaslı inşaat işləri aparılır.

Biz müasir texnologiyalara böyük önəm verərək Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda bizim investisiyalarımız, sərmayələrimiz – biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq.

Ulu Öndərin yolu ilə gedərək istənilən sahədə inkişafdan, uğurlardan bəhs etmək olar. Əlbəttə ki, bizim gördüyümüz bütün işlərin təməlində milli-mənəvi dəyərlərimizə bağlılıq dayanır. Bu gün dünyada, dünyanın müxtəlif yerlərində müxtəlif meyillər baş verir, müxtəlif tendensiyalar müşahidə olunur, dırnaqarası yeni dəyərlər meydana çıxır. Biz isə ənənəvi dəyərlərə sadiq qalaraq öz gələcəyimizi çox möhkəm milli-mənəvi təməl üzərində qururuq. Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk. Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk. Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh!

Əlbəttə, biz ordu quruculuğu işində sistemli fəaliyyət göstərirdik və bu gün də göstəririk. İkinci Qarabağ müharibəsindən sonra biz dayanmadıq, əksinə, irəliyə gedirik. Bu ilin dövlət büdcəsinə əlavələr ediləcək, o əlavələrin böyük bir hissəsi yenə də hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə üçün? Çünki biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır – həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdiriyimiz uşaqlardır. Biz belə gözəl uşaqlar yetişdirmişik ki, onlar düşməni burada, Şuşada əliyalın məğlub edib, düşməni torpaqlarımızdan çıxarıb, bizim qürur rəmzimiz olan bayrağımızı, bax, bu binaya və azad edilmiş bütün başqa torpaqlarda qaldırıb. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcəkdir.

İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır. Ermənistan 30 il ərzində öz himayədarlarının dəstəyi ilə bu torpaqları bizə verməmək üçün gecə-gündüz əlləşirdi. Həm coğrafi relyefə arxalanırdı, 5, 6, bəzən, 7 xətt müdafiə istehkam qurğularına arxalanırdı və himayədarlarına arxalanırdı. Hesab edirdi ki, biz bu vəziyyətlə barışacağıq. Amma mən deyirdim ki, yox, barışmayacağıq. Deyirdim bunu, gərək məni eşidəydilər. Deyirdim ki, gec-tez gələcəyik, bir təpiklə düşməni qovacağıq, öz Bayrağımızı qaldıracağıq və öz doğma torpaqlarımızda yaşayacağıq. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi.

Qeyd etdiyim kimi, Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!" Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı.

Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq.

Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası məsiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı – bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək.

Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

# Müasirləşən, yenidən qurulan Şuşa Ümummilli Liderin yüzillik yubileyinə qiymətli töhfə

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada bir sıra tədbirlərdə iştirak ediblər*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır.

Diqqətə çatdırıldı ki, yaşayış kompleksində, ümumilikdə, 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Bu kompleksdəki mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Mənzillərin bir hissəsi isə Şuşada çalışan işçilərin xidməti istifadəsi üçün nəzərdə tutulub. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhərinin Baş planına uyğun olaraq D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq.

Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Dövlətimizin başçısı Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlini qoydu.

* * *



Mayın 10-da Şuşada Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma küçələrdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Heydər Əliyev küçəsinin uzunluğu 1751 metr, eni isə yol yatağına uyğun olaraq 10-14 metr aralığında dəyişir. 8 Noyabr küçəsinin uzunluğu 2912 metr, eni 10 metrdir. Bu küçələr də müasir səviyyədə yenidən qurulacaq, bütün zəruri infrastruktur yaradılacaq.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışında iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma Şuşa Otel-Konqres Mərkəzi Kompleksində yaradılan şərait barədə məlumat verdi.

Xatırladaq ki, erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, “şeytan yuvası” – “parlamentin” binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otelin açılışı gerçəkləşdirilir. Prezident İlham Əliyev Şuşaya ilk səfərində – 2021-ci il yanvarın 14-də bu barədə demişdi: “Qondarma rejim bəyan etmişdi ki, “Dağlıq Qarabağ respublikası”nın “parlamentini” Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar “Dağlıq Qarabağ respublikası”nın “parlament” binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi”.

Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində – Zəfər yolunun üzərində yerləşir. 2022-ci ildə – “Şuşa İli”ndə Karvansaray konsepti əsas götürülən layihənin inşasına başlanılıb. Tikinti işlərinə yerli və xarici şirkətlər cəlb edilib. Bina həm klassik, həm də postmodern memarlıq üslubunda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir.

Bildirildi ki, beşulduzlu kompleks müasir



və milli memarlıq üslublarının sintezi ilə dizayn olunub. Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq olunub. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunub. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının – XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan (əsasən, palıd) hazırlanıb. Binanın fasad örtüyünün üzərində və vestibülün girişinin üzlüyündə təbii Şuşa daşı ilə hazırlanmış relyef işləmələr mövcuddur.

Kompleks fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Otel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb.

Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin texniki təchizatı, idarəetmə və enerji təminatı sistemi beynəlxalq standartlara uyğun qurulub. Belə ki, kompleksdə tətbiq olunan müasir idarəetmə panelləri səmərəli fəaliyyəti, təhlükəsizliyi və qonaqların rahatlığını təmin edəcək. Bununla yanaşı, binada ən yüksək texniki normalara uyğun havalandırma sistemləri tətbiq olunub. Kompleksin elektrik enerjisi ilə fasiləsiz və dayanıqlı təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Həmçinin binanın dam örtüyündə yüksək enerji səmərəliliyini təmin edən Günəş enerjisi panelləri də yerləşdirilib ki, bu da “təmiz” enerjiyə keçid istiqamətində görülən işlərin növbəti nümunəsidir.

Qeyd edək ki, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin kitabxanasında 1000-ə qədər kitab mövcuddur. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY, ölkəmizdəki bir sıra səfirliklər (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkmənistan) və Tatarıstanın daimi nümayəndəliyi bu kitabxanaya, ümumilikdə, 215-ə qədər kitab hədiyyə edib.

Oteldə “Miras Rəsm Qalereyası” tərəfindən Azərbaycanın mədəni irsinə həsr olunan, “Doğma Mədəniyyət Ocağımız” şüarı altında sərgi açılıb. Sərgidə Qarabağdan olan korifey sənətkarlarımızın, eləcə də Azərbaycanın bu bölgəsindən ilham almış şəxslərin əsərləri nümayiş olunur. Ekspozisiyada Xalq rəssamları Nadir Əbdürrəhmanov, Maral Rəhmanzadə, Altay Hacıyev, Səttar Bəhlulzadəyə məxsus 23 rəsm əsəri, o cümlədən qarabağlıların portretləri, eləcə də bu ərazinin gözəl dağ mənzərələri yer alıb. Qarabağ mövzusundan ilhamlanan Xalq rəssamı Akif Əsgərovun, heykəltəraşlar Cavanşir Məmmədovun və Müşfiq Heydərovun 6 sənət nümunəsi də tamaşaçılara təqdim olunur.

Kompleksin ətrafında mövcud ağaclar qorunmaqla geniş sahə yaşıllaşdırılıb, yeni ağaclar və bəzək gülləri əkilib, həyətində müasir interyerə malik daxili bağ salınıb. Burada qapalı və açıq avtomobil dayanacaqları vardır.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, kompleksin yaxınlığında XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu ərəfəsində şəhərin

Ardı 4-cü səhifədə

müdafiəsinin təşkili məqsədilə İbrahimxəlil xanın göstərişi əsasında fəaliyyət göstərən silah emalatxanası və hazır silah-sursatın saxlanılması üçün anbar və emalatxananın həyatində qazılmış təsərrüfat quyusu da buraya gələcək qonaqlara nümayiş etdiriləcək.

***

Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün əlavə üfüqlər açır. İşğaldan azad olunmuş torpaqlarımızın zəngin iqtisadi potensialı bu ərazilərin bərpası və yenidən qurulması prosesini də sürətləndirir.

İşğaldan azad edilmiş torpaqlarımız tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var.

Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında təməli qoyulan beynəlxalq hava limanları azad edilmiş ərazilərimizin turizm potensialının reallaşmasında, turist cəlbində mühüm rol oynayacaq.

Şuşa şəhəri tarixən Azərbaycanın mədəni, ictimai, siyasi həyatının mühüm mərkəzlərindən biri olub. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" Qərar qəbul edilib. Həmin qərarın nəticəsində Şuşada tarixi-mədəni irsin qorunması istiqamətində əhəmiyyətli addımlar atılıb. Lakin işğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib, şəhərin memarlığına və milli-mədəni irsimizə misli görünməmiş ziyan vurulub.

İkinci Qarabağ müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Məhz Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrildi, tariximizə Zəfər Günü kimi həkk olundu. Şuşa Zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşa, həmçinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib.

Şuşa mədəniyyət paytaxtı olduğu kimi, turizm mərkəzi olmaq imkanına da malikdir. Burada təbiət və mədəniyyətin nadir ahənginə şahid olmaq mümkündür. Şuşa şəhəri həm fəsil, həm də nadir memarlıq üslubu baxımından fasiləsiz turizm potensialına sahibdir və bu potensiala uyğun turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə başlanılması ilə bağlı tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verildi.

Qeyd edək ki, Şuşada Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə Prezident İlham Əliyevin tapşırığına əsasən başlanılıb. Burada keçmiş poçt binasında və onun yerləşdiyi ərazidə əsaslı təmir işləri aparılacaq. Dördmərtəbəli binanın əsaslı təmirindən sonra burada "ASAN xidmət" və "DOST xidməti" mərkəzləri, KOB evi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (poçt, rabitə qovşağı) filialının fəaliyyət göstərməsi nəzərdə tutulur.

* * *

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışında iştirak ediblər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarayı yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar sökülərək binanın tarixi formasına qaytarılması işləri yerinə yetirilib.



Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Yaradıcılıq Mərkəzindəki ekspozisiya salonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində açılan "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış oldular.

Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Eləcə də sərgidə Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

Ümummilli Lider Heydər Əliyev qədim Qarabağın tarixini, mədəniyyətini, incəsənətini mükəmməl bilir, böyük diqqət və qayğı göstərərək onun inkişafına çalışırdı. 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu il yanvarın 12-də Ümummilli Liderin iştirakı ilə "Ağdam-Xankəndi" dəmir yolunun açılışı oldu. Bu, Ulu Öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər qazanmaqla bir daha sübuta yetirdi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada təşkil edilən Gül Festivalı ilə də tanış oldular.

Qeyd edək ki, festivalın keçirildiyi ərazidə müxtəlif növ güllərdən maraqlı kompozisiyalar qurulub, eləcə də ayrı-ayrı növlərdən olan güllərin sərgisi təşkil edilib.

Ziyarətçilər, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qonaqları mayın 12-dək Gül Festivalındakı sərgi və təqdimatlarla tanış ola biləcəklər.

* * *




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşada Xurşidbanu Natəvan və Zəfər küçələrində, həmçinin Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsindəki lövhələrin açılışlarında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma küçələrdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, uzunluğu 438 metr, eni isə 14 metr olan Xurşidbanu Natəvan küçəsi şəhərin tarixi-mərkəzi hissələrini əhatə edir. Vətən müharibəsində şanlı Qələbənin şərəfinə adlandırılan Zəfər küçəsinin uzunluğu 1963 metr, eni isə yol yatağına uyğun olaraq 10-11 metr aralığında dəyişir. Şuşada əsas küçələrdən biri də Qarabağ küçəsidir. Bu küçənin uzunluğu 338 metr, eni isə 11 metrdir. Azərbaycanın Xalq artisti, görkəmli xanəndə Xan Şuşinskinin adını daşıyan küçənin uzunluğu 293 metr, eni isə 10 metrdir.

Qeyd olundu ki, Şuşanın tarixi-mədəni irsinin bir sıra nümunələrinin yerləşdiyi bu küçələr şəhərin orijinal memarlıq üslubuna uyğun qaydada yenidən qurulacaq. Yenidənqurma işləri zamanı bu küçələrdə ən müasir infrastruktur yaradılacaq.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtükləri götürdü.

* * *

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım, həmçinin ensiklopedik alim Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunmuş sərginin açılışında iştirak ediblər.

Əvvəlcə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məsciddə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Yuxarı Gövhər Ağa məscidində 2021-ci ilin sonlarından aparılan bərpa işləri başa çatıb. Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbəlayı Səfixan Qarabağidir. Bu, müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədi ilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universiteti nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında araşdırılıb.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. İşğal dövründə məsciddə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb.

Ardı 5-ci səhifədə

Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib.

Məlumat verildi ki, bərpa işləri mədrəsə binasını da əhatə edib. Məscidin mədrəsə hissəsində taxta dam konstruksiyanın qurulması işləri tamamlanıb. Mövcud döşəmə örtüyünün sökülməsi və qalıqların təmizlənməsi işləri başa çatdırılıb. Hazırda mədrəsə binasının ərazisində məscid minarəsinin ornamentləri və otaqların rəsmlərini işləmiş Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunan sərgi açılıb.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri, həmçinin məscidin ərazisində yerləşən mədrəsə binasında “Mir Möhsün Nəvvab Qarabağı – XIX əsrin ensiklopedik alimi” sərgisi ilə tanış olublar.



Qeyd edək ki, Qarabağ ədəbi mühitinin görkəmli nümayəndələrindən biri – istedadlı şair, rəssam, musiqişünas, filosof, pedaqoq Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunmuş sərgidə onun Milli Azərbaycan Tarixi Muzeyində qorunan və XVIII–XIX əsrlərə məxsus Azərbaycan silah sənətini özündə təcəssüm etdirən şəxsi silah kolleksiyası, şairin müəllifi olduğu, illüstrasiya çəkdiyi və Şuşada öz nəşriyyatında çap etdiyi kitablar, onun musiqi, kimya, astronomiya sahəsində fəaliyyətinin əks olunduğu eksponatlar nümayiş etdirilir. Sərgidə astronomiya elmi ilə maraqlanan Mir Möhsün Nəvvabın bu sahə üzrə çəkdiyi cədvəllər, səma cisimlərinin yerləşməsi və Günəş tutulmaları ilə bağlı sxemləri də nümayiş olunur.

* * *



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşadakı Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayı Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub.

Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. “PAŞA Holding”in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın “Wehdorn Architekten” şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb.

İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib.

Aparılan analizlər nəticəsində minarənin üzərindəki naxışların ilkin rəngi müəyyən olunub və minarə ona uyğun bərpa edilib, ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılıb.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri məscidin həyətində ağac əkdilər.

* * *





Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Milli Xalça Muzeyinin Şuşa filialının açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib.

Qarabağ torpaqlarının Ermənistanın işğalına məruz qaldığı dövrdə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi.

Hazırda Şuşada yeni xalça ekspozisiyası təqdim olunur.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri muzeydə sərgilənən eksponatlar və sənət əsərləri ilə tanış oldular.

Ekspozisiyada vaxtilə təxliyə edilmiş və əsasən, XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Burada, ümumilikdə, 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.

Ziyarətçilərin eksponatlar haqqında daha dolğun məlumat əldə edə bilmələri üçün ekspozisiyada sensor ekran quraşdırılıb. Ekranda Qarabağın, xüsusilə də Şuşanın maddi və qeyri-maddi irs nümunələri, kübar ailələri, xarici kolleksiyalarda qorunan Qarabağ xalçaları, Şuşa filialının 1992-2022-ci illər ərzindəki fəaliyyəti haqqında məlumatlar verilir.

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü, bədii dünyagörüşünü duymağa, həmin tarixi mühiti təsəvvür etməyə imkan yaradır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada Dəmir Yumruq küçəsinin lövhəsinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma küçədə aparılan bərpa-yenidənqurma işləri barədə məlumat verildi.

Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsini təmin edən və xalqımızın sarsılmaz birliyinin rəmzinə çevrilən Dəmir Yumruğun şərəfinə adlandırılan bu küçə şəhərin mərkəzi hissələrini əhatə edir. Dəmir Yumruq küçəsinin uzunluğu 2473 metr, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir. Bərpa-yenidənqurma işləri Şuşanın tarixi görkəminə uyğun qaydada yüksək səviyyədə aparılır.

Dövlətimizin başçısı Dəmir Yumruq küçəsinin lövhəsinin açılışını etdi.



## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər





Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

**AZƏRTAC**

## Naxçıvanda Ümummilli Liderin 100 illiyinə həsr olunmuş tədbir keçirilib

Mayın 10-da Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri, dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.



Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Heydər Əliyev Muzeyinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıdığını, Ulu Öndərin zəngin və çoxşaxəli irsinin öyrənilib təbliğ edilməsindəki aktiv rolunu, zəngin fond eksponatlarını, müxtəlif səviyyəli elmi konfransları, seminarları, interaktiv dərsləri, görüşləri təşkil edib keçirdiyini və muxtar respublikanın həyatında müstəsna rolunu nəzərə alaraq muzeyə “muxtar respublika” statusu verilib. Muzeylə tanışlıqdan sonra Naxçıvan Muxtar Respub-



likası Nazirlər Kabinetinin 10 may 2023-cü il tarixli “Heydər Əliyev Muzeyinə “muxtar respublika” statusunun verilməsi haqqında” Qərarı oxunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli deyib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2023-cü il “Heydər Əliyev İli” elan olunub və respublikamızın bütün bölgələrində Ulu Öndərin ömür yolu, dövlətçilik fəaliyyəti, Onun zəngin irsi araşdırılır və gənc nəslə ötürülməsi üçün təqdim olunur. Bu gün müstəqil Azərbaycanın uğurla inkişaf etdirilməsi məhz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Fuad Nəcəfli Ulu Öndərin sovetlər birliyi dövründən başlayaraq ölkəmizin inkişafını təmin etmək üçün həyata keçirdiyi tədbirlərdən, eyni zamanda Sovet İttifaqının ölkəmizə qarşı repressiyalarından bəhs edib. Qeyd olunub ki, Azərbaycan xalqı tarixdə 2 dəfə, ilk dəfə İkinci Dünya müharibəsində, sonra isə İkinci Qarabağ müharibəsində faşizmlə müharibə aparıb. Sevindirici haldır ki, biz hər iki müharibədə qalib olmuşuq.

Bildirilib ki, 1960-cı illərin əvvəlləri Azərbaycan olduqca çətin siyasi vəziyyətdə idi. Ovaxtkı Azərbaycan Sovet Sosialist Respublikasının rəhbərliyi mərkəzdə heç bir təsir imkanlarına malik deyildi. Azərbaycanın torpaqları, Azərbaycanın sərvətləri amansızcasına dağıdılır və Azərbaycan Respublikasının inkişafı üçün heç bir tədbir görülmürdü. Məhz belə bir dövrdə Ulu Öndər hakimiyyətə gəlmişdi və Ona olduqca ağır bir miras buraxılmışdı. İkinci dəfə hakimiyyətə gəlişində də acınacaqlı mirasla üz-üzə idi. Lakin Heydər Əliyevin alnının yazısı idi ki, məhz Azərbaycanı yüksəkliklərə qaldırsın və bunu bacardı da. 1969-cu ildən sonrakı illərə diqqət yetirsək, görərik ki, sovet sosialist respublikası olan Azərbaycanın bütün sahələr üzrə göstəriciləri sürətlə inkişaf edirdi. Dahi rəhbər Azərbaycan Sovet Sosialist Respublikasının inkişafı üçün əlindən gələni edirdi. 1969-cu ildə Azərbaycanın ciddi kadr çatışmazlığı vardı. Bu da islahatlar aparmaqda çətinliklər yaradırdı. Bu sahədə də ciddi işlər görüldü. Ulu Öndər deyirdi: ***“İndi bizim respublikada xalq təsərrüfatının daha kəskin ehtiyac hiss etdiyi ixtisaslar üzrə Sovet İttifaqının ən yaxşı tədris müəssisələrində hazırlanmış böyük kadr dəstəmiz vardır. Bu il Azərbaycanda cəmi 3600 oğlan və qız Sovet İttifaqının müxtəlif ali məktəblərində 244 ixtisas üzrə təhsil alacaqlar”.*** Hər il 500-dən artıq gəncin ittifaq əhəmiyyətli universitetlərdə və olduqca əhəmiyyətli ixtisaslar üzrə təhsil aldığı hər birimizə məlumdur. Sonrakı illərdə hərbi sahədə kadrların yetişdirilməsi üçün addımlar atıldı. O vaxt Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbi yaradarkən Ulu Öndər daha sonrakı illərdə bir etirafı ilə bir daha hər kəsi təəccübləndirə bilmişdi. Dahi şəxsiyyət deyirdi ki, ***“Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm. Cəmşid Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax bu cür baxacağam”.*** Hələ totalitar rejimin at oynatdığı bir dövrdə Dövlət Təhlükəsizlik Komitəsinin zabiti Azərbaycanın üstünlüyünü düşünürdü. Daha sonrakı illərdə Heydər Əliyevin yetişdirdiyi kadrlardan Azərbaycan Respublikasının müstəqilliyi üçün atdığı addımlarda, keçmiş dövrlərdə əsasını qoyduğu islahatlar nəticəsində əldə etdiyi bütün bəhrələrdə istifadə etməsi göstərirdi ki, O, Azərbaycan Respublikasının müstəqilliyi üçün çalışıb.

Qeyd olunub ki, 1982-1987-ci illər Ulu Öndərin həyatında xüsusilə vacib idi. Sovet İttifaqında hakimiyyət iyerarxiyasının ən yüksək mərhələlərinə yüksəlmiş ikinci bir azərbaycanlı yox idi. O bunu səmimi şəkildə etiraf edirdi. Hələ o dövrdən Ümummilli Lider Azərbaycanın üzərindən diqqətini ayırmamışdı. Ölkəmizdə zavodlar tikilirdi, mədəniyyət müəssisələri fəaliyyət göstərirdi, kənd təsərrüfatı sahəsi inkişaf edirdi, mərkəzdən ayrılan vəsaitin əsas hissəsi Azərbaycanın inkişafına yönəldilirdi. Burada başqa bir məqam da var idi. Mənfur qonşularımız və onların havadarları dəfələrlə Azərbaycan, eləcə də türk soylu millətlərə qarşı müxtəlif təxribatlara əl atırdı. Bu təxribatların hər birinin qarşısı Ulu Öndər tərəfindən ustalıqla alınırdı. Ovaxtkı SSRİ rəhbəri Qorbaçov da erməni havadarları ilə birləşərək erməni soyqırımı kimi saxta iddiaların qəbul olunması layihəsini həyata keçirmək istəyirdilər. Lakin o vaxt Ulu Öndər peşəkarlıqla bu layihənin həyata keçirilməsinin qarşısını aldı. Sonrakı dövrlərdə dahi lider aparılan siyasətlə razılaşmayaraq vəzifəsindən istefa etdi.

Səlahiyyətli nümayəndə Ulu Öndərin Bakıya, oradan isə Naxçıvana qayıtmasından, taleyüklü qərarlar qəbul etməsindən, muxtar respublikanı işğaldan qurtarmasından, yenidən hakimiyyətə gələrək ölkənin hərbi, iqtisadi, mədəni cəhətdən inkişaf etdirilməsi uğrunda atdığı addımlardan, bu istiqamətdə keçirdiyi görüşlərdən danışıb. Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu siyasi xətti uğurla davam etdirir. 30 ildən artıq bir müddətdə Azərbaycanda qarayaraya çevrilmiş Qarabağ konflikti artıq tarixin zibilliklərinə atılıb. Qarabağ Azərbaycanın bir parçasıdır. Vətən müharibəsindən sonra yaranmış daha bir reallıq isə respublikamızda böyük bir infrastruktur layihəsi olan Zəngəzur dəhlizi layihəsidir. Bu layihə həm regional, həm lokal, həm də kontinental mənada çox böyük bir təsirə malikdir. Bu mənada, Naxçıvan Muxtar Respublikası üçün də Zəngəzur dəhlizi çox böyük perspektivlər açır. Qarşımıza qoyulmuş tapşırıqları layiqincə yerinə yetirəcəyik. Çünki biz Ulu Öndərin siyasi ardıcıllarıyıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov deyib ki, bu il Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamına əsasən ölkəmizdə və Azərbaycanın Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlərlə geniş qeyd olunur, Onun əziz xatirəsi ehtiramla yad edilir. Sovetlər birliyi dövründən başlayaraq Ulu Öndər Heydər Əliyev uzaqgörənliklə ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks layihələrin həyata keçirilməsinə nail olmuşdur. O dövrdən başlanan sürətli inkişaf Azərbaycanın bütün regionlarını əhatə edib, sənaye, tikinti-quruculuq və aqrar-sənaye kompleksinin inkişafına nail olunub, emal və hasilat şəbəkəsi genişlənib.

*Ardı 7-ci səhifədə*






Respublikanın böyük şəhərlərində yeni iş yerləri yaradılmış, əhalinin işlə təminatı yaxşılaşdırılmışdır. Ölkənin elmi, iqtisadi, mədəni, hərbi və bunların vəhdətindən doğan siyasi potensialının yaradılması yolundakı keşməkeşli fəaliyyəti nəticəsində Ümummilli Liderimiz Heydər Əliyev, əslində, müstəqil Azərbaycanın dövlətçilik əsaslarını işləyib hazırlayıb. Ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən siyasi çəkişmələr yenicə qazanılmış müstəqilliyi itirmək təhlükəsi yaratmışdı. Ölkədaxili və regional siyasi proseslər Azərbaycanı, eləcə də Naxçıvanı uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac vermişdi. Belə bir dövrdə Ümummilli Liderimizin Naxçıvana qayıtması, 1991-ci il sentyabrın 3-dən 1993-cü il iyunun 9-dək olan müddətdə muxtar respublika Ali Məclisinin Sədri kimi fəaliyyət göstərməsi Naxçıvanı işğaldan, məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi qısa vaxtda həyata keçirdiyi möhtəşəm işlərlə müstəqilliyimizin təməl daşlarını qoymuşdur.

"Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına şərait yaratdığını", – deyən Azər Zeynalov bildirib ki, üçrəngli bayrağımız ilk dəfə milli liderin sədrliyi ilə Naxçıvanda qaldırılıb, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılıb, Naxçıvan SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməyib, digər tərəfdən isə qonşu ölkələrlə münasibətlərə üstünlük verilib. Dahi şəxsiyyətin rəhbərliyi ilə dövlətçiliyimiz naminə həyata keçirilən işlər təkcə bununla məhdudlaşmırdı. Belə ki, xalqımızın başına gətirilən tarixi cinayətə – 20 Yanvar faciəsinə də ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisində siyasi qiymət verilib, həmin günün "Milli Matəm Günü" kimi qeyd olunması, həmçinin 31 dekabr Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Gününün təsis edilməsi qərara alınmışdı. Ölkəmizin inkişafında əsas hərəkətverici siyasi qüvvə olan Yeni Azərbaycan Partiyası da həmin dövrdə Naxçıvanda yaradılıb, müstəqil Azərbaycanın müasir siyasi tarixinin əsası qoyulub. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında blokadanın yaratdığı çətinliklərin aradan qaldırılması, iqtisadiyyatın dirçəldilməsi, əhalinin sosial rifahının yaxşılaşdırılması da diqqətdə saxlanılıb, aqrar islahatların həyata keçirilməsi məqsədilə bir sıra tarixi qərarlar qəbul edilib. Naxçıvanda Ulu Öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda, Azərbaycanın digər bölgələrində bunun əksi – siyasi hərcmərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Ölkəmizin məhvə sürükləndiyi belə bir vaxtda xalq yeganə ümid və xilas




yolunu Naxçıvandan başlanan qurtuluşda – Ümummilli Liderimizin böyük siyasətə qayıdışında tapdı. 1993-cü ilin 9 iyununda dahi siyasətçi xalqın təkidli tələbi ilə Bakıya gəldi. Ölkənin parçalanmaq məqamında, iqtisadiyyatın iflic vəziyyətdə olduğu vaxtda bütün məsuliyyəti çiyinlərinə götürən, öz missiyasını xalqa və dövlətə xidmət əsasında quran dahi öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu qayıdış yenicə müstəqillik qazanmış bir dövlətin müqəddəratını həll edən, onu inkişaf və tərəqqi yoluna çıxaran siyasi xəttin başlanğıcı, itirilmiş ümidlərin yenidən canlanması idi.

Qeyd olunub ki, Ümummilli Liderimizin əsasını qoyduğu siyasi xətt hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqımız öz xoşbəxtliyini, ölkəmiz isə öz inkişaf və tərəqqisini Ulu Öndərimiz Heydər Əliyevin ideyalarına və bu ideyaların daşıyıcısı olan Prezident cənab İlham Əliyevin siyasi kursuna sədaqətdə görür. Azərbaycan ikitərəfli və çoxtərəfli formatda beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlıq edir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə Azərbaycan öz mövqeyini bildirir və mənafelərini qoruyur. Uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib. İkinci Qarabağ müharibəsində qazanılmış Tarixi Zəfər də ölkəmizin hərbi qüdrəti ilə yanaşı, həm də Ümummilli Liderimiz Heydər Əliyevin böyük müdrikliklə işləyib hazırladığı və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət strategiyasının qələbəsidir. Bu qələbənin ən mühüm nəticələrindən biri isə 30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın digər bölgələri arasında quru əlaqəsinin yaradılması, regionda kommunikasiyaların açılması olacaqdır. Ölkə Prezidenti cənab İlham Əliyevin ötən illərdəki siyasi fəaliyyəti göstərdi ki, Ulu Öndərin dəfələrlə öz təsdiqini tapmış siyasi kursunun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır. Bu gün fəxrlə deyirik ki, ölkəmizin, xalqımızın qazandığı bütün nailiyyətlər Ümummilli Liderimizin siyasi xəttinin təntənəsidir. Bu gün biz bütün varlığı ilə sevdiyi, canından əziz bildiyi Vətəninə, xalqına həyatını, fəaliyyətini həsr edən Ulu Öndərimizin əziz xatirəsini bir daha yad edirik. Onun başladığı böyük siyasi və dövlətçilik fəaliyyətini uğurla davam etdirən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayırıq.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov bildirib ki, Ulu Öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Səbuhi Məmmədov dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə həyata keçirdiyi tədbirlərdən, muxtar respublikanın inkişafı istiqamətində gördüyü işlərdən danışıb. Bildirilib ki, yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa zamanda ümummilli maraqlara əsaslanan və ali dəyərlərə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi və inkişafı təmin etdi. Bu gün Ümummilli Liderin siyasi xəttini uğurla davam etdirən, arzularını yerinə yetirən Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində əldə edilən çoxsaylı uğurlar sırasında ən uca zirvədə isə Vətən müharibəsində qazandığımız parlaq Qələbə dayanır. Ölkə Prezidentinin iradəsi nəticəsində Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın blokadasına son qoyulacaq, muxtar respublika tranzit-nəqliyyat imkanları ilə bütün bölgənin iqtisadi inkişafına öz töhfəsini verəcək.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının III kurs tələbəsi, Heydər Əliyev adına təqaüdçü Məryəm Azadın çıxışları dinlənilib. Çıxışlarda Ulu Öndərin zəngin və şərəfli həyat yolu, siyasi və dövlətçilik fəaliyyətindən, ölkəmizin bütün sahələrdə inkişafının təmin olunması istiqamətində göstərdiyi əvəzsiz xidmətlərdən danışılıb. Dahi şəxsiyyətin Azərbaycanı əbədi müstəqilliyə, yüksək rifaha, inkişafa doğru apardığı qeyd edilib, ölkəmizin dünya miqyasında tanınması üçün Ulu Öndərimiz tərəfindən atılan addımlar xüsusi vurğulanıb.Həmçinin ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Tarixi Qələbənin əldə olunması, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycan xalqı qarşısında xidmətlərindən ətraflı bəhs olunub.

Ölkə Prezidenti cənab İlham Əliyevin bu gün Şuşada səfərdə olarkən Naxçıvanla bağlı söylədiyi fikirlər tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbir çərçivəsində Azərbaycan televiziyasının hazırladığı Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "Əsrin adamı" filminə baxış olub.

Bədii hissə ilə davam edən tədbirdə Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev Asim Əliyevin "Bir nurlu heykəl yarat" şeirini qiraət edib, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı, Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin şagirdləri tərəfindən konsert təqdim olunub.

Səlahiyyətli nümayəndə səhnə arxasına keçərək kollektivlə söhbət edib, xatirə şəkli çəkdirib.



## Naxçıvanda Ümummilli Liderin 100 illiyi münasibətilə möhtəşəm konsert təşkil olunub

Mayın 10-da Naxçıvan Muxtar Respublika Stadionunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə təşkil olunan konsertdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, on minlərlə muxtar respublika sakini iştirak edib.

Konsertdən əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan xalqa müraciətində Naxçıvanla bağlı fikirləri geniş ekranda videoyazı vasitəsilə tamaşaçıların diqqətinə çatdırılıb.

Stadionda quraşdırılan böyük ekranlarda Ümummilli Lider Heydər Əliyev haqqında "Əsrin xəyalı" adlı kompozisiyalar, dahi şəxsiyyətin videoyazıları, Azərbaycanın elm, sənət, idman və mədəni zənginliklərini əks etdirən kadrlar yayımlanıb. Eyni zamanda 1500 dronla Ulu Öndərin portreti, xarıbülbül, buta, üçrəngli Dövlət Bayrağımız və digər simvollar səmada əks etdirilib, geniş bayram atəşfəşanlığı olub.

Milli geyimli oğlan kürə içərisində olan simvolik xarıbülbülü səlahiyyətli nümayəndə Fuad Nəcəfliyə təqdim edib.

Ardınca isə səhnə tanınmış sənət adamları, müğənnilər, Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ixtiyarına verilib. Konsert proqramında Üzeyir Hacıbəyli, Qara Qarayev, Müslüm Maqomayev, Cahangir Cahangirov, Ramiz Mirişli, Rauf Hacıyev, Eldar Mansurov

Ardı 8-ci səhifədə

və digər bəstəkarların əsərləri səslənib, Xalq artisti Nurəddin Mehdixanlı Zəlimxan Yaqubun “Sənin yerin görünəcək” şeirini bədii qiraət edib. Müğənnilərdən Zamiq Hüseynov, Çingiz Mustafayev, “Şeron” qrupunun üzvləri, Azərbaycan Respublikasının Əməkdar artistləri Sevda Ələkbərzadə, Elton Hüseynəliyev, Teymur Əmrah, Azərbaycan Respublikasının Xalq artisti Fidan Hacıyeva mahnılar ifa ediblər.

Konsert proqramında proyeksiya xəritəsi, akrobatika, işıq-lazer göstəriləri, rəqs və ümumi dekor imkanları ilə müasir səhnə texnologiyaları birləşərək təsirli foto keçidləri və ən əhəmiyyətlisi unudulmaz təcrübə yaradılıb.

**“Şərq qapısı”**























# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi muxtar respublikamızda geniş qeyd olunub

Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar olaraq ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs keçilib.

İnteraktiv dərsdə muzeyin direktoru Ramil Orucəliyev əvvəlcə mədəniyyət müəssisəsi barədə şagirdlərə ətraflı məlumat verərək bildirib ki, hələ Ümummilli Lider Heydər Əliyevin sağlığında yaradılan muzeydə Ulu Öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanıb.



İnteraktiv dərsdə vurğulanıb ki, dahi rəhbərin Vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilası, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın Ümummilli Liderinə çevirib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və böyük əzmkarlığa malik olan Ulu Öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi tənəzzüldən çıxararaq qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bilib, müstəqil dövlətçilik yolunda ilk addımları məhz Naxçıvanda atıb.

Şagirdlərin diqqətinə çatdırılıb ki, Ulu Öndərin 1993-cü ilin iyununda siyasi hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik xalqımızın ən qiymətli mənəvi-ideoloji sərvətinə çevrilib. Bugünkü güclü, qüdrətli Azərbaycanı O öz əlləri ilə qurub-yaradıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb. Ulu Öndər ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf konsepsiyalarını işləyib hazırlayıb və reallaşdırılmasını təmin edib. Ona görə də xalqımız Ümummilli Lideri ilə fəxr edir, qürur duyur, Onun ideyalarını həyata keçirməyə çalışır. Qeyd olunub ki, müdrik rəhbər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Ulu Öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır. Bu böyük insanın həyat yolu hər bir məktəbliyə, hər bir gəncə nümunədir.

Bu gün Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının əldə etdiyi bütün uğurlar Heydər Əliyev siyasi yolunun bəhrələridir.

Qeyd edək ki, həmin gün ümumtəhsil məktəblərində ilk dərs saatı da Ümummilli Liderə həsr olunub.

* * *



Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun təşkilatçılığı ilə Ulu Öndərin yubileyi ilə əlaqədar yürüş təşkil edilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirak etdiyi yürüş şəhərin Heydər Əliyev prospektində həyata keçirilib. İştirakçılar prospektlə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Sarayına qədər yürüş ediblər.

Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevin 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikasının ən hündür nöqtəsi olan Qapıcıq zirvəsinə yürüş edib.



Ordubad rayonu ərazisində yerləşən və hündürlüyü 3905 metr olan Qapıcıq zirvəsinə qalxan hərbi qulluqçularımız Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad edib, Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırıb və Dövlət Himnimizi səsləndiriblər.

Sonda xüsusi təyinatlılar Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini tərənnüm edən lövhəni qaya üzərində bərkidiblər.




Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin təşkilatçılığı ilə dahi şəxsiyyətin yubileyi münasibətilə fləşmob keçirilib.

Fləşmobda məktəbin 100-dən çox şagirdi iştirak edib. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq şagirdlər Ümummilli Liderin adını və yubiley simvolu olaraq “100” formasında düzülüblər.

Bununla da, şagirdlər bir daha Ulu Öndər Heydər Əliyevin xatirəsinə olan sonsuz sevgi və ehtiramlarını bildiriblər.

* * *

*Naxçıvan Şəhər İcra Hakimiyyətində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar “Ümummilli Lider Heydər Əliyev – uşaqları sonsuz məhəbbətlə sevən lider” mövzusunda tədbir keçirilib.*

Naxçıvan şəhər məktəblilərinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov bildirib ki, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə öz xilaskarını, müasir və müstəqil dövlətimizin memarını sonsuz sevgi ilə anır, Onun Vətən və dövlət qarşısındakı misilsiz xidmətlərini minnətdarlıqla xatırlayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan olunması Ümummilli Liderin əziz xatirəsinə ehtiramın ifadəsidir. Görkəmli dövlət xadimi Heydər Əliyev uşaqları çox sevirdi. ***“Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır”***, – deyən Ulu Öndər Azərbaycanı, Azərbaycan uşaqlara, gənclərinə tükənməz sevgi və qayğısı ilə də ürəklərimizdə əbədiləşib. Xalqımız Ümummilli Lider Heydər Əliyev şəxsiyyətini həmişə uca tutur, əbədiyaşar liderin Vətən uğrunda xidmətlərini yüksək qiymətləndirir.



Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin bütün istiqamətlərdə apardığı işlər, o cümlədən uşaqların qayğı ilə əhatə olunması sahəsində müəyyənləşdirdiyi dövlət siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu uşaqlara dövlət qayğısının gücləndirilməsi ilə bağlı vacib proqramlar reallaşdırır, onların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması daim diqqətdə saxlanılır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və rəşadətli Ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızın işğaldan azad edilməsi isə məcburi köçkün uşaqlarının da həyatında yeni bir mərhələ başlanıb. Artıq uşaqlarımız məcburi köçkün deyil və ailələri ilə birgə öz doğma ata-baba yurdlarına qayıdışa hazırlaşırlar. Qarabağda və Şərqi Zəngəzurda aparılan sürətli bərpa-quruculuq işləri azad edilmiş ərazilərimizdə tezliklə xoşbəxt uşaq gülüşlərinin eşidiləcəyinə əsas yaradır.

Sonra tədbirin bədii hissəsi olub. Naxçıvan şəhərində fəaliyyət göstərən 3 və 5 nömrəli uşaq musiqi məktəblərinin və Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin kollektivləri konsert proqramı ilə çıxış ediblər.

* * *



*Mayın 10-da muxtar respublikamızın bütün rayonlarında Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi geniş şəkildə qeyd edilib. İcra hakimiyyətlərinin, idarə, müəssisə və təşkilatların əməkdaşları, ictimaiyyət nümayəndələri Ulu Öndər Heydər Əliyevin rayon mərkəzlərindəki büst və abidələrini ziyarət edib, önünə tər güllər düzüb, dahi şəxsiyyətə dərin ehtiramlarını bildiriblər.*

Rayonların Mədəniyyət saraylarında keçirilən tədbirlərdə müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirlərdə çıxış edən rayon İcra hakimiyyətlərinin başçıları bildiriblər ki, Ulu Öndər Heydər Əliyev mənalı ömrünü, bütövlükdə, Azərbaycana, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmlənməsinə həsr edib. Dahi şəxsiyyətin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi fəaliyyəti tənəzzül içərisində olan Sovet Azərbaycanı üçün dirçəliş dövrü kimi tarixə düşüb. Tarixi faktlara nəzər salsaq, görərik ki, o dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sahələri istifadəyə verilib, 630 min yeni iş yeri açılıb. Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdirsə, Ulu Öndərin rəhbərlik etdiyi dövrdə – cəmi 13 il ərzində onların sayı 1048-ə çatdırılıb, sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəlib, taxıl, üzüm, pambıq və meyvə-tərəvəz istehsalı sahəsində məhsuldarlıq bir neçə dəfə artıb. Beləliklə, 1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxıb.

İcra başçıları deyiblər ki, dahi şəxsiyyət Heydər Əliyevin 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində böyük addımların atılması ilə nəticələnib, həm də muxtar respublika işğal təhlükəsindən qorunub. Ümummilli Lider Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyətini görən və qiymətləndirən xalq Onu təkidlə ölkəmizə rəhbərlik etməyə çağırıb. 1993-cü il iyunun 15-də Ulu Öndərimiz ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas edib.

Qeyd olunub ki, taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürən Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqının köməyinə çatıb, onu zamanın ağır məngənəsindən xilas edib. Azərbaycanda dövlətçilik ənənələrinin bərpası, zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə irəliləməsi dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasəti və yorulmaz fəaliyyəti sayəsində mümkün olub. Ulu Öndər doğma xalqının önündə gedərək Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bilib və ölkəmizin tarixinə qurtuluş mübarizəsinin qalibi kimi daxil olub. Görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin təcrübəsinin nəticəsi idi ki, respublikada 1993-cü ildən sonra dövlət quruculuğu uğurla həyata keçirilib. Onun dühasının qüdrəti sayəsində ölkədə siyasi və milli-ideoloji birliyin əsası qoyulub, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrilib.






Bildirilib ki, bu gün Ümummilli Lider Heydər Əliyev siyasi yolunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi cəhətdən güclü, siyasi cəhətdən tam müstəqil dövlətə çevrilib. Azərbaycanın gündən-günə artan nüfuzu, iqtisadi və siyasi imkanları uzun illərdir, işğal altında saxlanılan torpaqlarımızın azad olunmasına imkan verdi. 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu tamamilə məhv edən Azərbaycan Silahlı Qüvvələri düşməni kapitulyasiya aktını imzalamağa məcbur edərək tarixi ədalətin bərpasına nail oldu.

Vurğulanıb ki, Azərbaycanımızın ayrılmaz hissəsi olan, Heydər Əliyev ideyalarının sarsılmaz sədaqətlə davam etdirildiyi Naxçıvan Muxtar Respublikası bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Qədim diyarımız uzun illərin blokada şəraitinə baxmayaraq, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı ilə iqtisadiyyatın dinamik inkişafı, sabitlik, əhalinin həyat səviyyəsinin yüksəlməsi və digər istiqamətlər üzrə nümunə ortaya qoyub.

Muxtar respublikanın rayonlarında keçirilən yubiley tədbirlərində ayrı-ayrı dövlət təşkilatlarının nümayəndələri, ziyalılar, elm adamları çıxış edərək dahi şəxsiyyətin mənalı ömür yolundan, zəngin siyasi fəaliyyətindən danışıblar. Tədbirlər çərçivəsində Ulu Öndərə həsr olunan fotosərgilərə və filmlərə baxış olub, axşamüstü yubiley münasibətilə konsert proqramları təşkil edilib.

**Xəbərlər şöbəsi**



# Heydər Əliyev İli 100

*Gözəl bir yaz axşamı qədim Naxçıvanın hüsnü daha da gözəlləşib. Gecə olsa da sanki Günəş doğulub səmada, hər yer al-əlvandır. Hər tərəfdə başı göylərə ucalan üçrəngli bayraq dalğalanır. Hər kəs günlərdir, həsrətlə gözlədiyi yubiley tədbirinə tələsir. Burada Vətən üçün sağlamlığını itirən qaziləri də görürük, yaxasında öz şəhid balasının fotosunu daşıyan şəhid anasını da, əlində üçrəngli bayraq tutub “biz bir ölüb min dirilərik”, – deyən şəhid balasını da, uzaq kənddən gələn “qəlbimiz bir dəfə Vətən deyəndə, bir dəfə də Heydər Əliyev deyir”, – söyləyən 70 yaşlı babanı da. On iki min nəfərlik Naxçıvan Muxtar Respublika Stadionunda dayanan hər kəs ürəyində Vətən və Heydər Əliyev sevgisi ilə Ulu Öndərə həsr olunan mahnıları dinləyir, səbirsizliklə qədim diyarın səmasında dahi rəhbərin portretinin əks olunmasını gözləyir. Biz də bu tədbirdə böyük sevinc və qürur hissi ilə iştirak edib, bir neçə muxtar respublika sakini ilə həmsöhbət olduq.*

## Böyük dühaya sevgi, ehtiram və minnətdarlıq duyğusu ilə...



Şəhid atası Şərur rayon sakini ***Rəhim Mədətli*** nəvələri ilə birlikdə gəlib buraya. O bildirdi ki, oğlu Zülal Vətən müharibəsində, Şuşa uğrunda gedən döyüşlərdə şəhadət şərbəti içib. Bu gün burada bu gözəllikləri görəndə 1990-cı illərdəki çətin, amma şərəfli günləri xatırladığını deyən müsahibim bildirdi ki, həmin illərdə ordumuz yox idi, aclıqla sınağa çəkilirdik, şaxtalı qış günlərində soyuqdan qorunmaq üçün məcbur qalıb öz əllərimizlə təbiəti məhv edirdik. Ta ki O, gələnə kimi. Onun Naxçıvana gəlişi ümid işığı yandırdı qəlbimizdə. Ordu da yaratdı, düşməni də diz çökdürdü, qıtlığın qarşısını aldı və həmin illərdə soyuqdan donmayaq deyə balta vurduğumuz ağacların yerinə əlinə bel alıb ağac əkdi, nümunə göstərdi xalqa. Bütün bunları Heydər Əliyev bacardı. Həm də təkbaşına xalqı ilə bir olaraq. O, tək-tənha gəlmişdi Naxçıvana, amma biz qucaq açdıq, qucaqladıq



qeyrətli Vətən oğlunu. Xalqı ilə bir oldu, bugünkü Azərbaycanın təməlini burada atdı. Onun qurduğu ordunun döyüşçülərindən övladım da Vətən oğlunun arzularını gerçəyə çevirənlərdən biri oldu. Doğma Qarabağı azad edən balalarımız Ulu Öndərin “Şuşaya qayıdacağıq” arzusunu çin etdi. Bu gün Naxçıvan səmasında dronlar vasitəsilə təsvir edildikdə, sanki Azərbaycan xalqının bu böyük oğlunun şad ruhu azad Vətən səmasında canlandı, xarıbülbül fotosunun yaradıldığını görəndə ruhun şad olsun Ulu Öndər, ruhunuz şad olsun əziz balalarımız dedim.

Dahi rəhbərin Naxçıvanda yaşadığı illərdə qonşusu olan, şəxsi fotoqrafı Aftandil Qurbanovun həyat yoldaşı ***Ləzifə xanım***la həmsöhbət oluruq:

–1990-cı illərin çətin günlərində Ulu Öndər Naxçıvana gələndə bizim binada yaşayan bacısı Sürə xanımgildə yaşayırdı. Hər səhər həyətə enərdi, uşaq-böyük, hər kəslə öz dilində danışardı. Onu görmək üçün təkcə naxçıvanlılar yox, digər uzaq rayonlardan da sakinlər gələrdi. Elə olurdu ki, binanın qarşısında izdiham yaşanırdı. O isə heç yorulmurdu insanları dinləməkdən, onların dərdinə qulaq asmaqdan. Qapısı hər kəsə açıq idi. Ulu Öndər Naxçıvanda olanda onun 70 illik yubileyində iştirak etmək şərəfinə nail olduğum üçün özümü xoşbəxt hiss edirəm. Elə bir insanla bir an belə üz-üzə olmaqdan gözəl heç nə ola bilməzdi mənim üçün. Əliyev o qədər sadə insan idi ki, biz onun bu sadəliyinə, ürəyinin böyüklüyünə heyran qalırdıq. İndi Naxçıvan səmasında Onun portretini görəndə gözlərim yaşla doldu. Çox təəssüf ki, O bu günləri, arzusunda olduğu gələcəyi üçün canını fəda etdiyi Azərbaycanın Zəfər Gününü görə bilmədi. Amma mən inanıram ki, Onun ruhu cənnətdə şaddır. O, Ali Baş Komandanın Şuşada dediyi kimi bütün bunları görür.

Konsertdə iştirak edənlər arasında Zeynəddin kənd tam orta məktəbinin



tarix müəllimi ***Limunət Həsənova*** ilə həmsöhbət olduq. Müsahibimiz dedi ki, xalqımızın qəlbində yaşayan Ümummilli Lider Heydər Əliyev qədim tarixi olan yurdumuza göstərdiyi müstəsna xidmətlərlə yaddaşlara əbədi qəhrəman olaraq həkk olunub. Bu gün Onun doğum günü münasibətilə təşkil olunan konsert proqramı, həqiqətən də, möhtəşəm dizaynı ilə gözoxşayır. Musiqi sədaları qonaqların zövqünə xitab edir. Müsahibim onu da qeyd etdi ki, xüsusilə ali təhsil ocağımız olan Naxçıvan Dövlət Universitetinin simfonik orkestrinin göstərdiyi yüksək peşəkarlıq və səsləndirdiyi ifalar bizə xoş ovqat bəxş etdi. Bu gün bir daha şahidi oluruq ki, Ulu Öndərin bizə miras qoyduğu ideyalar Mgənc nəsil tərəfindən yaşadılır. Dahi lider Heydər Əliyev daim bu xalqın yaddaşında əbədi olaraq qalacaq.

Naxçıvan şəhər sakini 65 yaşlı ***İsa Əhmədov*** bildirdi ki, dahi rəhbər bütöv Azərbaycan üçün əziz və dəyərli bir insandır. Dahi lider Azərbaycanı nicat yoluna çıxardı. Bugünkü gözəl və abad, bütöv Azərbaycanın memarı məhz Ulu Öndərdir. Onun şərəfinə təşkil edilən bu tədbirdə olarkən bir anlıq keçmişə qayıdır düşüncələrim. Çörək, neft növbələri, qaranlıq işıqsız evlər canlanır zehnimdə. Biz onun sayəsində düşmənə sinə gərdik. Onun səyləri ilə tək başına mübarizə aparıb qalib olduq. Heydər Əliyev Günəşi bu Vətənin başı üzərində əbədi olaraq şəfəq saçacaq.

Ağcabədi rayon sakini ***Adil Məmmədov*** qədim diyara, əsgər övladının andiçmə mərasiminə gəlib. O dedi:

–Bu gün müstəqil Azərbaycan Ordusu dünyaya öz cəsarəti ilə meydan oxuyur. Dahi rəhbərin Naxçıvanda əsasını qoyduğu milli ordunun zabit və əsgərlərinin səsi Şuşadan, Laçından gəlir. Naxçıvanda ilk addımlarını atan müstəqil ordu Qafqazın ən güclü ordusu kimi dastan yazır. Onun tamamlaya bilmədiyi işləri başa çatdıran layiqli davamçısı cənab İlham Əliyev xalqımızın adını dünya xalqları içində ən ön sıraya çıxardı. Qarabağda qələbə çalan ordu Heydər Əliyevin əsəridir. Biz Ona minnətdarıq. Oğlumun burada xidmət etməsindən qürur hissi keçirirəm. Konsert proqramı möhtəşəmdir. Lazer şou və əvəzolunmaz liderin fotosunun səmada əks olunmasını görəndə qürur hissi keçirdim.

Əsgər ***Aqşin Məmmədli*** bir neçə aydır ki, yurdumuzda həqiqi hərbi xidmət edir. O bildirdi ki, Ulu Öndərin doğulduğu torpaqda xidmət etməkdən fəxr duyur. Buraya gəldiyi ilk gündən insanların xoş münasibətilə qarşılaşdığını deyən müsahibim qeyd edir ki, məzuniyyətinin belə bir günə təsadüf etməsi onu çox sevindirib.

Türk vətəndaşı ***Zəhra Afra*** artıq 3 ildir ki, Naxçıvan Dövlət Universitetində təhsil alır. O dedi: – Gördüyüm ən böyük və gözəl konsert idi. Muxtar respublikada Ümummilli Liderin doğum günündə belə tədbirin təşkil edilməsinin xüsusi önəmi var. Bu gün bu tədbirdə hamının sevimlisi olan müğənnilər çıxış etdi. Maraqlı şouların baş tutması, fləşmob, atəşfəşanlıq bütün izləyicilərin ayaqda alqışlamasına səbəb oldu. Hər kəs kimi, mən də böyük fəxrlə konsert proqramını izlədim. İnanıram ki, bu tədbir bütün Azərbaycanda möhtəşəmliyi ilə tarixə düşəcək. Çünki həm də Naxçıvan dahi liderin anadan olub boya-başa çatdığı torpaqdır.




Naxçıvan şəhər sakini ***Namiq Həsənov***un 70-ə yaxın yaşı var. O bildirdi ki, uzun illər müəllim işləyib. Hazırda təqaüdədir. Dedi ki, müstəqilliyi yeni qazandığımız illərdə təhsil də bərbad vəziyyətdə idi. Qışın soyuğunda uşaqlar əllərini qoynundan çıxarıb yazı yaza bilmirdilər. Məktəblər şəraitsiz idi, müəllimlərin aldığı maaş yol puluna yetmirdi. Dahi rəhbərin gəlişindən, Azərbaycanın Prezidenti seçiləndən sonra bütün sahələr kimi təhsil inkişaf etdi. Bu gün Naxçıvanın ən ucqar dağ kəndlərində belə müasir məktəblər var. Vaxtilə yolu-izi olmayan kəndlər müasir görkəmə bürünüb. Onun Naxçıvana gəlişini yaxşı xatırlayıram. Uzun və çətin yollardan necə keçib dağılmaq üzrə olan Azərbaycanı necə ayağa qaldırdığını da. Bugünkü konsert dahi rəhbərin adına yaraşan şəkildə təşkil olunmuşdu. Təşkilatçılara və bu şəraiti yaradanlara təşəkkür edirəm.

Şahbuz rayonunun Külüs kənd sakini ***Ziyafət Məmmədov*** qeyd etdi ki, dahi rəhbərin yüzilliyinə həsr edilmiş tədbir, bir sözlə, möhtəşəmdir. Onun Azərbaycan xalqı üçün etdikləri nə sözə, nə sətirlərə sığmaz. Sevinirik ki, dahi rəhbərlə eyni torpaqda dünyaya gəlmişik. Bu yubiley tədbiri məhz Naxçıvanda keçirildi. Təşkilatçılıq möhtəşəm idi. Qeyri-adi bir şou izlədik.

Tədbirin sonunda Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin üzvləri ilə də söhbət etmək imkanı tapdıq. İncəsənət fakültəsinin müəllimi ***Aysel Eminli*** orkestrdə fleyta alətində ifa edir. O dedi:

– Qəlbimizdə əbədi yerə sahib olan bir insanın yubileyi münasibətilə keçirilən tədbirlərdə iştirak etməkdən fəxr duyuruq. Bu möhtəşəm tədbirdən öncə Zərifə xanım Əliyevanın yüzillik yubileyi münasibətilə keçirilən tədbirdə də və bir neçə başqa tədbirlərdə iştirak etmişik. Bu kimi tədbirlərdə iştirak etmək həm məsuliyyətli, həm də şərəflidir. Biz xoşbəxt insanlarıq ki, bizə müasir Azərbaycanı hədiyyə edən bir insanın yubileyində Ona ithaf olunan mahnıları da müşayiət edirik.

Fakültənin digər gənc müəllimi ***Nicat Əsgərov*** nəfəsli alətlərin ifaçısıdır. O bildirdi ki, hər bir azərbaycanlının qəlbində yeri olan dahi rəhbərin möhtəşəm ad günü tədbirinin iştirakçısı olmağın qürurunu yaşayır: – Ulu Öndərin bu xalq üçün əvəzolunmaz xidmətləri hər birimizin ürəyində əbədi bir dastandır. Biz xoşbəxt insanlarıq ki, bu səhnədə çıxış etmək imkanı əldə etdik. Doğma universitetimizin bugünkü inkişafında xüsusi zəhməti olan təkcə Naxçıvanda olduğu illərdə yox, Prezident seçildikdən sonra da bu təhsil ocağına qayğı ilə yanaşan bir şəxsiyyətə həsr edilən mahnıları çox böyük qürurla müşayiət etdik. Dövlətimizə Ulu Öndər yoluna hər sahədə xidmət etməyə hazırıq.

Digər bir müsahibim Naxçıvan Musiqi Kollecinin skripka ixtisası üzrə ikinci kurs tələbəsi ***Eminə Ağayeva*** da sevincini bizimlə bölüşdü. O dedi ki, bu günə kimi bir neçə dövlət tədbirində iştirak ediblər. Amma buranın həyəcanı tamam başqa oldu: – Həm insanların çoxluğu, həm də xalqımızın dahi oğlunun ad günü tədbiri olması hamını həyəcanlandırdı. Amma bu sevincdən, qürurdan yaranan həyəcan idi. Çalışdıq ki, Ona layiq şəkildə çıxış edə bilək.

Gecə saat $21^{25}$-dir, konsertin keçirildiyi məkana gedə bilməyən insanlar şəhərin küçələrinə çıxıb, öz evlərinin pəncərələrindən Naxçıvan səmasını bəzəyən üçrəngli bayrağa, Vətənimizin əziz oğlu Ulu Öndər Heydər Əliyevin göylərdə əks olunan portretinə, səmada min bir rəng alan atəşfəşanlığa tamaşa edirlər. Bu qədər insanı gecənin bu vaxtı tədbirin keçirildiyi meydana, küçələrə çıxaran bir səbəb var, Ulu Öndərə sonsuz ehtiram və sevgi. Vaxtilə bir çağırışıyla milyonlarla insanı meydanlara çıxarıb, qardaş qırğınının, işğalın qarşısını alan Vətəni dağılmaqdan, yox olmaqdan xilas edən Azərbaycanı dünyaya tanıdan yoxdan var oluşu yaradan dahi rəhbər sevgisi. Bu dünən də belə idi, bu gün də belədir, gələcəkdə də belə olacaq. Özünün də dediyi kimi, nə qədər Azərbaycan var O da var olacaq.Yüz deyil, yüzlərcə il yolumuz Onun yolu olacaqdır. Çünki bu yol Vətən yoludur bu yol azadlıq, müstəqillik yoludur. Bu, bütöv, qalib Azərbaycan yoludur.

✍ Ramiyyə ƏKBƏROVA
✍ Aidə İBRAHİMOVA
✍ Məcid RƏŞADƏTOĞLU
✍ Bülbül QULİYEVA
✍ Aysel YUSİFZADƏ
✍ Süreyya QƏDİMƏLİYEVA

# Heydər Əliyev İli 2023

## Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz

***Hər bir xalqın tarixi keçmişi onun milli-mənəvi dəyərlərində əks olunur. Milli-mənəvi dəyərlər isə xalqın dili, ənənəsi, tarixi kimi faktorlardır və xalqın milliliyinin qorunması onun gələcəyə doğru inkişafını da təmin edir. Millətin qədim təsəvvürlərinin yaşadıldığı adət-ənənələrinin müasir dövrlərdə də icrası heç də həmişə mümkün olmur. Bu mümkünsüzlük ya xalqın özünün biganəliyi, ya da o xalqın həmin dövrdə rəhbərliyində olan insanların sözügedən məsələlərə kortəbii yanaşmasından irəli gəlir. Belə olan zamanda da xalq öz milliyini, dəyərlərini mühafizə edə bilmir. Əgər rəhbər mövqedə duran insan milliyətçiliyin qorunmasını, siyasətin millilik konsepsiyasını özündə prioritetə çevirərsə, onda xalq da öz uğurlu gələcəyinin təminatını mövcud dövrdə tənzimləyə bilər.***

Azərbaycan xalqı əsrlərboyu öz torpağı, Vətəni, milli kimliyi uğrunda mübarizə aparıb. Tarixdə elə şəxsiyyətlər olub ki, Vətəninin və xalqının mənafeyi naminə bütün ömrünü həsr edib. Türk millətinin dahisi Atatürk fəaliyyəti ilə kökü qədim dövrlərə gedən türk xalqının gələcəyini də qarant altına aldı. Bu fəaliyyət türk millətinə böyük bir özünəinam bəxş etdi. Və türk milləti də bu dahi şəxsiyyətin dövlətin tərəqqi və yüksəlişindəki müstəsna rolu və fəaliyyəti sayəsində xoşbəxt gələcəyə doğru addımladı.

Azərbaycan xalqı zaman-zaman dərin mücadilələrlə üzləşib. İstər sərhədlərinin müdafiəsində, istər daxili sabitliyinin təmin edilməsində, istər yadellilərin hücumundan və yad münasibətlərdən qorunmaq yolunda Azərbaycan dövləti və Azərbaycan xalqı, demək mümkündür ki, böyük mübarizələrdən üzüağ çıxıb. Bu mübarizələrdə xalqın önündə gedənlər – rəhbər mövqedə dayananlar böyük rol oynayıblar. Belə insanlar mənsub olduğu xalqın kökünə, soyuna dərindən bələd olanlardır. Onlar tarixin təhrif edilməsi, millətinin bəsit tarixlə üz-üzə qalmasını qəbul edə bilməyib canlarını fəda edəcək qədər mübarizəyə atılıblar. Belə şəxsiyyətlərdən biri də Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevdir.

Azərbaycan tarixində öz vətənpərvər mübarizəsi ilə xalqın xoşbəxt gələcəyini təmin edən, Ulu Öndər titulunu xalqdan qazanmış Heydər Əliyev milliliyə elə yüksək dəyər verirdi ki, bunun ölçüyəgəlməzliyini ifadə etmək üçün bəzən sözlər yetmir.

1969-cu ildən başlayaraq sovetlərin qılıncının sağının və solunun kəsdiyi bir dövrdə o, milli düşüncəsindən qaynaqlanan fəaliyyətini də gerçəkləşdirirdi. Olduqca yüksək səviyyəli idarəetmə və siyasət düşüncəsindən irəli gələrək fəaliyyətində nöqsan aramağa cəhd edən irticaçıları da mədəni şəkildə susdururdu. Ümummilli Liderin hakimiyyətdə olduğu kəskin sovet rejimi dövründə dahi öndərin fəaliyyətində prioritet məsələ Azərbaycançılıqla bağlı olan məqamlar idi. Ümummilli Lider bu məqamları çox böyük sərištə və siyasi ustalıqla işin məğzinin alt qatında yerləşdirərək həyata keçirirdi.

Həmin illərdə Azərbaycanın bir çox regionlarında milli bayramların keçirilməsi canlanmağa başlandı. Və nəzərə almaq lazımdır ki, sovet rejiminin millilik ideyalarını parladan atributlarımızın məhv olunması yönündəki siyasəti həmin dönəmlərdə ən yüksək aktivlikdə idi. Rejim milli və dini dəyərlərimizin tamamilə sıradan çıxarılmasına yön almış iyrənc siyasətini həyata keçirməkdə ikən Ulu Öndərimizin bu siyasəti tam imkan daxilində zərərsizləşdirməyə çalışması və həm də belə bir antimilli siyasət yeridilən respublikada əsas fəaliyyətini – türkçülük ideyalarının qorunmasını həyata keçirməsi ölçüyəgəlməz vətənpərlik duyğularına malik olmağın təcəssümüdür. Ümummilli Liderimiz məhz belə bir dövrdə dilimizin qorunması uğrunda da mübarizə aparmışdır. Ulu Öndərin mübarizəsinin əyani sübutu onun dövlət tədbirləri və yığıncaqlarında ana dilində danışmağa üstünlük verməsi idi. Azərbaycan dilinin möhtəşəmliyini sovet carçılarının nəzərinə ürəklə çatdırmağa nail olan xalqımızın böyük oğlunun nitqində bu dil xüsusi gözəllik qazanırdı. O, dilimizin dərinliklərinə mükəmməl şəkildə bələd idi. Lakin sovetlərin kəskin siyasi rejimi dönəmində dahi rəhbər bu fəaliyyətini olduqca ehtiyatla həyata keçirirdi. O, çox yaxşı bilirdi ki, bu yolda fədakarlıq göstərən əksər ziyalıları, şair və yazıçıları sovet rejimi məhv etmişdir. Onların məhvi təkcə özlərinin, ailələrinin, yaxın qohum-əqrəbalarının deyil, həm də Azərbaycançılıq ideyasının gələcəyinə böyük zərbə idi. Dahi siyasətçi yaxşı bilirdi ki, hər hansı kiçik ehtiyatsızlıq onun millilik ideyalarının gerçəkləşdirilməsi uğrundakı fəaliyyətini üzə çıxara bilər. Bilirdi ki, kəskin sovet rejiminin apardığı antimilli siyasətin qarşısını almaq birdən-birə mümkün deyil. Ulu Öndər Azərbaycan fəhlələrinin ön cərgələrdə yer alması üçün var qüvvəsi ilə fəaliyyət göstərirdi. Mədəniyyət işçilərinin, elm adamlarının, təsərrüfat sahəsindəki fəhlələrin əməyinin qiymətləndirilməsini ozamankı qanun içərisində o qədər mükəmməl şəkildə həyata keçirirdi ki, bəzən qarşı tərəf belə bu məqamlar qarşısında çaşqınlıq içərisində qalırdı. Bəli, Ulu Öndər elə siyasətçi idi ki, ağır şəraitdə belə yenilməyərək öz amalı və məqsədi uğrunda var qüvvəsi ilə çalışaraq "Azad Azərbaycan" arzusunu gerçəkləşdirmək ideyaları ilə yaşayırdı və ömrünü də, özünün dediyi kimi, bu yola həsr etmişdi.



Xalqımızın böyük oğlu milli ideyaların və milli adət-ənənələrimizin yaşaması və qorunması, gələcək nəslə ötürülməsi məsələlərinin vacibliyini prioritet məqsəd olaraq qarşısına qoymuşdu. Bunu təkcə Azərbaycan daxilində deyil, ümumtürk kontekstində həyata keçirməyin daha faydalı olduğunu gözəl bilirdi. Çünki türkün ümumkökü onun müasir dönəmdəki törənlərində də öz əksini tapmaqdadır. Əgər türk xalqlarına məxsus olanları qabardıb ortalığa çıxarmaq mümkün olarsa, irtica ümumtürk istəyinə nümayişkaranə şəkildə etiraz edə bilməzdi. Təbii ki, tədricən həyata keçiriləcək fəlakətlər gözlənilirdi. Lakin ümumtürk xalqlarının təqdir etdiyi və türklərə məxsus dünyagörüşü yaşadan adətlərin, bayramların keçirilməsinin türk xalqlarının hamısı tərəfindən qəbul olunmasını ən ümdə şərt kimi önə çəkirdi. Bu da irticanın müəyyən qədər susqunluğunun təmin edilməsi demək idi.

Dahi Öndərin elmə, mədəniyyətə, incəsənətə, ədəbiyyata verdiyi dəyər Azərbaycançılıq ideyaları uğrunda aparılan siyasət idi. O, "Kitabi-Dədə Qorqud" kimi xalqın qəhrəmanlıq dastanının dəyərləndirilməsi və gələcək nəslə ötürülməsində olduqca böyük xidmət göstərdi. Belə ki, dastanın 1300 illiyinin keçirilməsi Ulu Öndərin milli ruha, qədim etnik düşüncəyə, ulu soykökə bağlılığının və bu kökə sədaqətinin bariz ifadəsi idi. Və bu barədə, yəni dastanın 1300 illiyinin keçirilməsi haqqında saysız-hesabsız məqalələr yazıldı, fikirlər söyləndi. Bu, insanlarımızın xalqımızın ulu soykökünə olan dəyərdən aldığı sevinc və minnətdarlıq dolu fikirləri idi. Milli dəyərləri dövlət siyasətinin əsaslarında qoruyub saxlayan Ulu Öndər çox gözəl bilirdi və bütün dünyaya da çatdırırdı ki, Azərbaycan mədəniyyətinin kökü qədimdir. Mədəniyyətimiz milli köklər üzərində yaranıb və formalaşıb. Bunları mövcud zamanda da yaşatmaq vacibdir ki, gələcək nəsil öz kökünə şüurlu şəkildə sahib çıxa bilsin. Odur ki, milli dövlətçiliyimizin formalaşması və yaşamasında şifahi ənənəmizin çox böyük rolu və əhəmiyyəti olduğundan Ulu Öndər bu sahədəki görülən işləri təqdir edir, qarşıda duran problemlərin həll olunmasında mütəxəssislərə əsl rəhbər qayğısı göstərirdi.

Xalq yaradıcılığı örnəklərini toplayıb yazıya almaq, elmi araşdırmalara cəlb etmək də millilik siyasətinin həyata keçirilməsi deməkdir. Çünki bu örnəklər, sözün əsl mənasında, milli düşüncədən qaynaqlanır. Odur ki, bu sahədə görülən işlərin keyfiyyətini təmin etmək üçün əlverişli məkan məsələsi də vacib faktorlardandır. O vaxt bu işlər də kiçik bir ərazidən ibarət olan "Folklor sarayı"nda icra edilirdi. Qeyd edək ki, AMEA Məhəmməd Füzuli adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən "Folklor" sarayı Bakı şəhərində – İçərişəhərdə yerləşirdi. Sarayın kiçik kollektivi hələ sovet rejimindən folklorun toplanması işlərində yorulmaz fəaliyyət göstərirdi. Xalqın milli-mənəvi sərvəti olan folklorun toplanması milli mədəniyyət və tariximizə olduqca gərəkli idi. Bunu özünə prioritet məsələ kimi qəbul etmiş ziyalılar – qanında əsl türk qanı axan alimlərimiz folklorun toplanmasına xüsusi diqqət göstərirdilər. Yaşlı nəslin yaddaşında yaşayan elə dəyərli örnəklər mövcud olur ki, onların zamanında toplanması bəzən bir çox tarixi həqiqətlərin açılmasına böyük töhfə verə bilir. Mədəniyyətimizi və milliliyimizi formalaşdıran folklor örnəklərini elmi müstəviyə çıxararaq araşdırıb tədqiq etmək folklorçuların ən ümdə borcudur. Lakin burada bütün yük təkcə alimlərin – folklorçuların üzərinə düşə bilməzdi. Onların fəaliyyətinin uğurlu şəkildə gerçəkləşməsi, fəaliyyətlərini ümumdünya elmi auditoriyaya tanıdılmaması üçün dövlətin qayğısına çox böyük ehtiyac var idi. Məhz Ümummilli Liderin təşəbbüsü ilə bu qayğının folklor elminə göstərilməsi bugünkü Folklor İnstitutunun yaranmasını şərtləndirdi. 2003-cü ilədək yalnız digər institutun tərkibində – Ədəbiyyat İnstitutunun kiçik bir şöbəsi olaraq fəaliyyət göstərən "Folklor" sarayı "İnstitut" statusu aldı. Ulu Öndər Heydər Əliyev 2003-cü il sarayın müstəqil institut kimi fəaliyyət göstərməsi üçün Sərəncam imzaladı. Və elə o gündən etibarən institutda Azərbaycan folklorşünaslıq elminin yaşaması və inkişafı naminə saysız-hesabsız təqdirəlayiq işlər görülməkdədir: cild-cild kitablar çap olunur, folklor elmimizə xidmət edən elmi məqalələr yazılır, seminarlar, elmi konfrans və simpoziumlar təşkil olunur, peşəkar kadrlar yetişdirilir və sair bu kimi böyük əhəmiyyət kəsb edən işlər görülür.

Dahi Öndər Heydər Əliyevin milli kimliyimizə verdiyi çox böyük töhfələrdən biri də milli mərasim düşüncəmizin bərpası məsələsidir. Bunu təkcə Novruz bayramı üzərində təqdim etsək, xalqımızın böyük oğlunun milli düşüncəmizin bərpası yönündəki fəaliyyətinin mahiyyətini açıqca görmüş olarıq. Bilirik ki, sovetlər dönəmində milli və dini bayramlarımızın, mərasimlərimizin keçirilməsində kəskin qadağalar mövcud idi. Biz bu bayram və mərasimlərimizi gizlin şəkildə qeyd edirdik. Toy mərasimlərimizdə milli düşüncəmizi təbliğ edən aşıqlarımızın ifasına çox vaxt qadağalar qoyulurdu. Aşıq el atasıdır, – deyərlər. Xalqın dərd-sərini, ağrı-acısını, daxili iztirablarını ifadə etməkdə aşıqlarımız çox vaxt cəsarət nümayiş etdiriblər. Sovetlər dönəmində aşıqların toylarda iştirakına qoyulan qadağalar da xalqın daxili dünyasını cəsarətlə ifadə edən aşıqların tədricən məhv olmasına yönəlmiş məqsəddən doğurdu. Və bütün bunları rəhbər mövqedən çox ehtiyatla müşahidə edən Ulu Öndər milliyyətçilik siyasəti içərisində aşıq yaradıcılığının inkişafına qayğı göstərirdi. Bu qayğını dahi şəxsiyyət aşıqların bayram və tədbirlərdə iştirakını təmin etməklə, onları mənəvi dəyərlərin inkişafına xidmət edən, millətlərin mədəniyyətləri arasında əlaqə yaradan sənətkarlara fəxri adlar verməklə, görkəmli aşıqların yubiley tədbirləri və yaradıcılıq gecələrinin keçirilməsinə şərait yaratmaqla göstərirdi. Bütün bunlar isə milli kökümüzü ifadə edən aşıq sənətininin sovetin məhvedici siyasətinin qurbanı olmasının qarşısını kəskin şəkildə alırdı. Milli düşüncəmizin örnəkləri olan dastanlarımızın, xalq yaradıcılığı nümunələrinin yaddaşlardan toplanaraq yazıya alınmasına xüsusi həssaslıqla yanaşırdı. Bununla bağlı imzaladığı sərəncamlardan, verdiyi tapşırıqlardan irəli gələrək görülən işlər millilik düşüncəmizə böyük töhfə idi. Dahi rəhbər bunları bəzi özü real olan məqamların fonunda icra edirdi. Belə ki, Azərbaycan mədəniyyəti və milli-mənəvi dəyərləri ümumbəşəri ideyaların təbliği baxımından da təqdirəlayiqdir. Ulu Öndər məhz bu məqamdan yola çıxaraq Azərbaycan mədəniyyətinin inkişafına çalışırdı. O deyirdi ki, Azərbaycan mədəniyyəti dünya xalqlarının mədəniyyətinə daim qapılarını açmış mədəniyyətdir. O heç də öz içərisində stabil şəkildə qalmır. Bu mədəniyyət köklü dəyərlər kəsb etdiyindən onun inkişafı da ümumbəşəri amillərlə çulğaşır.

Milli-mənəvi kimliyimizi ifadə edən sözlü yaradıcılığımızın zaman keçdikcə yaddaşlardan silinməsi real faktdır. Düzdür, bu, olduqca böyük təəssüf hissi doğurur, amma gerçəklik də budur ki, milli düşüncəmizi özündə qoruyub saxlayan sözlü yaradıcılıq örnəklərimizi zamanında toplamadıqda, təbii ki, itib-batacaq. Və kəskin sovet rejiminin də ən ümdə vəzifələrindən biri bu idi ki, hökmranlıq etdiyi dövlətlərdə xalqların kökünə, milliliyinə işıq salan faktları tamamilə itirib yoxa çıxarsın. Xalqın qəhrəmanlıq düşüncəsini özündə təcəssüm etdirən dastanlarımızın yazıya alınıb, tədqiqata cəlb olunmasına isə çox hallarda icazə verilmirdi. Bu da açıq-aydın millilik və vətənsevərlik düşüncəsinin silinməsinə xidmət edən iyrənc siyasət idi. Belə bir siyasətin obyektlərindən biri də qəhrəmanlıq dastanımız olan "Kitabi-Dədə Qorqud" dastanına qarşı aparılan antitəbliğat idi. Rejim yaxşı bilirdi ki, "Kitabi-Dədə Qorqud" dünya epos mədəniyyətinin əvəzsiz nümunələrindən olub həm də Azərbaycanda bu mədəniyyətin parlaq örnəyidir. Akademik İsa Həbibbəyli dastanın Azərbaycan elmi və mədəniyyətinə yenidən qayıtmasında Ulu Öndərin ölçüyəgəlməz fəaliyyəti haqqında yazır: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra "Kitabi-Dədə Qorqud" dastanının ölkəmizdə milli təfəkkürün və Azərbaycançılıq məfkurəsinin daha da inkişaf etdirilməsində mühüm rolu olmuşdur. Bu mənada, Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 1997-ci il 20 aprel tarixli Fərmanı ilə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin ölkəmizdə 9 aprel 2000-ci ildə dövlət səviyyəsində təntənə ilə qeyd edilməsi böyük sənət abidəsinin layiqli şəkildə qiymətləndirilməsi ilə bərabər həm də milli düşüncənin, müstəqil dövlətçilik təfəkkürünün, Azərbaycançılıq ideyasının daha da qüvvətləndirilib möhkəmləndirilməsinə xidmətin ifadəsidir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman şərqşünası Henrix Fridrix fon Dits tərəfindən tapılıb üzə çıxarılmasının və elmi dövriyyəyə daxil edilməsi hadisəsinin yubiley səviyyəsində geniş miqyasda keçirilməsi, 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud parkının yaradılması, Dədə Qorquda və dastan boylarının qəhrəmanlarına abidə ucaldılması həm Azərbaycan xalqının bu möhtəşəm ədəbiyyat abidəsinin dünya miqyasında təbliğinə, həm də daha dərindən tədqiq edilib öyrənilməsinə böyük imkanlar açmışdır". Göründüyü kimi, akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanına göstərdiyi bu möhtəşəm qayğını türkçülük düşüncəmizin bərpası ilə bağlı olan ən qiymətli fəaliyyət hesab edir.

Beləliklə, Azərbaycan xalqının Ona əbədi sevgisini ifadə edən "Ulu Öndər" titulunu qazanmış Heydər Əliyev bütün fəaliyyəti əsasında türkçülük düşüncəsinin yaşaması və qorunması ideyasını kəskin irtica rejimində üstüörtülü, müstəqillik dövründə isə vüqarla, əzmlə açıq-aşkar nümayiş etdirərək reallaşdırdı. Bu gün hər bir azərbaycanlı milli-mənəvi dəyərlərimizin qorunduğu və yaşadığı müstəqil dövlətin vətəndaşıdır. Bunun üçün biz Ulu Öndərə borcluyuq. Odur ki, nə qədər Azərbaycan var, Ulu Öndərimiz Heydər Əliyev yaşayacaqdır.

**Aytən CƏFƏROVA**
*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent*

## Yeni Tədbirlər Planında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi davam etdirilir

Bu gün dünyanın üzləşdiyi problemlər sırasında müqəddəs nemət, insanların yaşam və sağlamlıq tərzi üçün vacib olan suyun Yer kürəsində getdikcə azalması dövrün reallığıdır. Ona görə dünyanın inkişaf etmiş ölkələrində bu problemin yaratdığı çətinliklərdən maksimum az zərərlə qurtarmaq üçün məqsədyönlü tədbirlər görülür. Ölkəmizdə də bu məsələnin öz həllini tapması üçün meliorasiya və irriqasiya tədbirləri davam etdirilir, su ehtiyatlarından səmərəli istifadə edilməsi diqqətdə saxlanılır, iqlim dəyişmələrinin törədə biləcəyi fəsadlar, gözlənilən risklər ətrafında müzakirələr aparılır, qərarlar qəbul edilir, yeni layihələr müəyyənləşdirilir.



Ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da bu məsələnin öz həllini tapması istiqamətində işlər görülür. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin muxtar respublikada içməli su və suvarma sularının böhranlı vəziyyətində idarə olunmasının zəruriliyi nəzərə alınaraq müvafiq Sərəncamla təsdiq olunan Tədbirlər Planından irəli gələn vəzifələrin həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinə, yerli icra hakimiyyəti orqanlarına, bələdiyyələrə, kütləvi informasiya vasitələrinə verilən tapşırıqların icra vəziyyəti ilə tanış olmaq üçün "Şərq qapısı" qəzeti aidiyyəti təşkilatlarla sıx əlaqə saxlayır. Bu günlərdə məhz bu məqsədlə regionumuzun ən böyük bölgəsi olan Şərur rayonunda müşahidələr apardıq, aidiyyəti qurumun əməkdaşları və bölgə sakinləri ilə görüşdük.



Şərur Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin baş mühəndisi ***Fazil Əliyev***lə söhbətimizdə ilk olaraq bölgədə təbii və dövlət tərəfindən yaradılmış su mənbələri barədə məlumat verməyi xahiş etdik. Həmsöhbətim bildirdi ki, rayonda xeyli içməli, həm də suvarma su mənbələri var. Arpaçay Su Anbarı, göllər, kaptajlar, artezian quyuları, kəhrizlər, nasos stansiyaları insanların içməli və təsərrüfat suyuna olan tələbatının, həmçinin kənd təsərrüfatının inkişafında başlıca vasitələrdir. Ona görə də həmin su mənbələrinin qorunması, onlardan səmərəli istifadə təkcə dövlətin deyil, həm də insanların borcudur. Öyrəndik ki, bu gün rayonda 479 subartezian quyusu mövcuddur. Rayonda həm içməli su təminatında, həm də kənd təsərrüfatının inkişafında, məhsul bolluğu yaradılmasında illərdir ki, həmin artezianlardan istifadə edilir. Onlardan 160-ı içməli, 235- i suvarma, 83-ü hər iki məqsəd üçün, biri texniki profilli su mənbələridir. 16 içməli və 43-ü suvarma profilli olmaqla, 59 artezian qəzalı vəziyyətdədir. İşlək subartezian quyularında hər il cari təmir işləri aparılır ki, rayon sakinlərinin hər iki suya olan tələbatının ödənilməsində çətinliklər yaranmasın.

Rayonun Gümüşlü kəndinin ərazisində yerləşən Arpaçay Su Anbarı 150 milyon kubmetr su tutumuna malikdir. Ancaq ötən payızda və qışda yağıntının miqdarı az olduğu, Arpaçayda suyun səviyyəsinin aşağı düşməsi ilə əlaqədar anbara 100 milyon kubmetr su yığılıb. Bu anbardan sağ sahil kanalı vasitəsilə Sədərək rayonu və Şərurun bir hissəsi, sol sahil kanalı vasitəsilə Kəngərli rayonu və Şərurun digər hissəsi istifadə edir.

Fazil Əliyevin sözlərinə görə, rayonda tutumu 50 min kubmetr olan Tənənəm gölündən həmin əraziyə yaxın ünvanlar istifadə edirlər. Tənənəmdə həm də 1 kəhriz mövcuddur. Kəhrizlərdən söz düşmüşkən müsahibim vurğulayır ki, Yuxarı Yaycı kəndində də kəhrizdən istifadə edilir. Hər iki kəhrizin işlək vəziyyətdə olması diqqət mərkəzində saxlanılır. Digər su mənbələrindən olan kaptajlar da şərurluların xidmətindədir. Belə ki, ötən il vurulmuş 2 Axura kaptajından həm axuralılar, həm də Həmzəli kəndinin sakinləri istifadə edirlər. Digər bir kaptaj isə Tənənəmdədir.

Mövcud su mənbələrinin üzərində qurulmuş 31 nasos stansiyasının 2-si içməli, 29-u suvarma suyu üçündür.

Müsahibimin sözlərinə görə kənd təsərrüfatı məhsullarının istehsalı zamanı elmi yanaşmanın və innovativ texnologiyalardan istifadənin təşviqinin ifadəsidir ki, rayonda çiləmə, damcı üsullarından istifadəyə geniş yer verilir. Bu gün rayonda 81 torpaq mülkiyyətçisi 430 hektar kartof və soğan əkini sahəsində süni yağış yağdırma (çiləmə) üsulundan istifadə edir. Belə vasitələrdən istifadə edənlərin sayı getdikcə artır. Mövsüm ərzində çiləmə və damcı üsulundan daha çox torpaq mülkiyyətçilərinin yararlanacağı da əlçatandır.

Bütün bu mənbələrdən səmərəli istifadə edilməsi, su itkisinə yol verilməməsi üçün idarə tərəfindən müntəzəm olaraq cari təmir işləri aparılır. İlin ötən dövrü ərzində də belə tədbirlər davam etdirilib. Belə ki, bir kilometr məsafədə selə qarşı istiqamətləndirici bənd işlənərək su itkisinin qarşısı alınıb, beton-torpaq



kanallarda, kollektorlarda, ara arxlarda lildən təmizləmə işləri aparılıb və digər ərazilərdəki su mənbələrində bu iş davam etdirilir.

Təmir işləri digər su mənbələrində də həyata keçirilib. Suvarma boru, içməli su, təzyiqli boru xəttində təmir işləri görülüb. Görülən işlərin texniki normativlərə uyğunluğu diqqətdə saxlanılıb.

Fazil Əliyevdən rayonda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin adıçəkilən Tədbirlər Planında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər barədə də məlumat aldıq. O bildirdi ki, bu gün bütün Yer kürəsini bürüyən su probleminin həllində bir sıra vəzifələrin yerinə yetirilməsi zəruridir. Bunlardan biri əhali arasında maarifləndirici tədbirlərin aparılmasıdır. Bunun üçün idarə müvafiq təşkilatlarla birgə yerlərdə olur, yaranmış çətinliklərin aradan qaldırılmasında əhalinin üzərinə düşən vəzifələr barədə məlumatlar verilir, sudan istifadə ilə əlaqədar müraciət edənlər operativ qaydada cavablandırılır.

Yaxın vaxtlarda həftəlik və gecə suvarma sisteminə keçiriləcəyi su istifadəçilərinə çatdırılıb. Bu su itkisinin qarşısının alınmasına öz təsirini göstərəcək. Arpaçay Su Anbarının sağ və sol sahil kanallarında, həmçinin ehtiyac duyulan bir sıra hidrotexniki qurğularda təmir işlərinin həyata keçirilməsinə başlanılması da nəzərdə tutulub. Magistral və paylayıcı kanallarda su itkilərini azaltmaq, su anbarlarına daxil olan və buraxılan suyun miqdarına nəzarətin artırılması, su bölgüsünə əməl edilməsi, suvarma suyunun normalara uyğun verilməsinə nəzarəti gücləndirmək diqqət mərkəzindədir.

Müsahibim onu da diqqətimizə çatdırır ki, Bakıdan aidiyyəti qurumlardan gəlmiş mütəxəssislər rayonun daha çox ehtiyac duyulan ərazilərində daha bir neçə artezian quyusu vurmaq üçün geoloji tədqiqatlar aparıblar. Həmin artezianlar qazıldıqdan sonra suya tələbatda olan çətinliklər bir qədər azalacaq.

Gəlinən nəticə budur ki, adıçəkilən Tədbirlər Planı muxtar respublika sakinlərinə daha bir qayğı olmaqla onların qarşısında mühüm vəzifələr qoyur. Sirr deyil ki, mövcud problemin həllində əhali də maraqlı olmalıdır.

Buna görə də bir neçə torpaq mülkiyyətçisi ilə görüşüb həmsöhbət olduq. ***Natiq İsmayılov*** bildirdi ki, rayonda su qıtlığının gətirəcəyi çətinliklərin qarşısının alınması üçün görülən tədbirləri dəstəkləyir və bu prosesdə istehlakçıların da üzərinə düşən vəzifələri yerinə yetirməyə səy göstərirlər.

Biz də inanırıq ki, qabaqcadan görülən tədbirlər nəticəsiz qalmayacaq, bu müqəddəs nemət insanları çətinlik qarşısında qoymayacaq.

**Muxtar MƏMMƏDOV**

## Daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində inkişafa nail olunub

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən aprel ayı ərzində də muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlakın dövlət reyestrinin aparılmasında operativliyin təmin edilməsi, əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması diqqət mərkəzində saxlanılıb. Xidmətin fəaliyyət istiqamətləri üzrə görülən işlər nəticəsində aprel ayında 830 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

Ötən ay ərzində "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"na uyğun olaraq xidmətin, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin və Babək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şıxmahmud kəndində rayon icra hakimiyyəti başçısının yerlərdəki nümayəndələrinin, bələdiyyə sədrlərinin, torpaq mülkiyyətçilərinin, o cümlədən ailə təsərrüfatçılarının iştirakı ilə maarifləndirici tədbir keçirilib. Həmçinin Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planına uyğun olaraq Ordubad rayonunun Azadkəndində və Şərur şəhərində bələdiyyə sədrləri, ailə təsərrüfatçıları və torpaq mülkiyyətçiləri maarifləndiriliblər.

Aprel ayında muxtar respublika üzrə 329 əmlaka dair texniki pasport, 307 torpaq sahəsinə dair plan-ölçü olmaqla, ümumilikdə, 636 texniki sənəd hazırlanıb. Vətəndaşlardan daxil olan müraciətlər əsasında ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 57 daşınmaz əmlak obyektinə ünvan verilib. Məhdudiyyət və yüklülüyə dair 479 arayış tərtib olunub.

Hesabat dövründə xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim edilən elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil olan 102 müraciət qəbul edilərək icrası üçün aidiyyəti üzrə yönəldilib. Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 1050 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib. 4 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binası sənədləşdirilib.

Təşkil olunan səyyar xidmətlər zamanı Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarının bir sıra yaşayış məntəqələrində vətəndaşlar qəbul edilib.

*Naxçıvan Muxtar Respublikası*
*Daşınmaz Əmlak və Torpaq Məsələləri*
*üzrə Dövlət Xidmətinin mətbuat xidməti*

## Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş minifutbol turniri başa çatıb



"Heydər Əliyev İli" çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Muxtar respublikada fəaliyyət göstərən məhkəmələr arasında minifutbol turniri həmin tədbirlərin davamı olub.

Turnirdə 12 məhkəməni təmsil edən 8 komanda iştirak edib. Final oyunu Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin komandası ilə Kəngərli və Sədərək Rayon məhkəmələrinin birgə komandası arasında baş tutub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin komandası, Naxçıvan Şəhər və Babək Rayon məhkəmələrinin birgə komandası üçüncü yer uğrunda mübarizə aparıb. Oyunların nəticələrinə əsasən Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin komandası birinci, Kəngərli və Sədərək Rayon məhkəmələrinin birgə komandası ikinci, Naxçıvan Şəhər və Babək Rayon məhkəmələrinin birgə komandası üçüncü yerin qalibi olub.

Turnirin bağlanış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev çıxış edərək Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş tədbirin əhəmiyyətindən danışıb, turnirdə iştirak edən komandaları təbrik edib. Sonda qaliblərin mükafatlandırılma mərasimi keçirilib. Birinci yerin sahibinə kubok, medal və diplom, ikinci və üçüncü yerlərə yiyələnmiş komandalara medallar və diplomlar təqdim edilib.

*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin mətbuat xidməti*

### İtmişdir

Babək rayonunun Məmmədrza Dizə kənd sakini İsmayılov Tofiq Məhəmmədəli oğlunun adına olan JN-140$^{A}$, 140$^{B}$, 140$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-95, 95$^{C}$ nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

***

Baxşəliyev Tahir Dosdəli oğlunun adına Naxçıvan Sürücülük Məktəbi tərəfindən verilmiş "E" kateqoriyası üzrə 007256 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Məmmədrza Dizə kənd sakini Qarayev Adəm Əzim oğlunun adına olan JN-132, 132$^{A}$, 132$^{C}$ nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 322